www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9-10 yanvar 2016-cı il Şənbə № 5 (6326) Qiyməti 50 qəpik

**Xəbər**

## Bakıda ər və arvad evdə yanaraq öldü

yazısı səh.14-də

**Gündəm**

### Rusiya Türkiyənin yanına qayıtmağa yol arayır - maraqlı gəlişmə



Bölgədəki yeni situasiya Moskvanı Ankaraya qarşı siyasətə yenidən baxmaq zorunda qoyub; "Türk axını" layihəsi qayıda bilər, əgər...; Kreml daşları yığmağa başlayır?

yazısı səh.9-da

### "Cahangir Hacıyev Eldar Mahmudovu da özü ilə həbsə aparır"

yazısı səh.4-də

### Daşınmaz əmlak bazarı ilə bağlı təzadlı proqnozlar...

yazısı səh.5-də

### Natiq Kərimovun həbsinin əsl səbəbi haqda yeni məlumat

yazısı səh.4-də

### AXCP sədrinin Fransadakı qohumu nazir oğlunun başını kəsəcəyini bildirdi

yazısı səh.6-da

### İqtidar düşərgəsi Obamanın dəvətinə sevinir, bəs müxalifət?

yazısı səh.9-da

### Türkiyənin Azərbaycana qarşı viza tətbiqi yalan çıxdı, amma...

yazısı səh.10-da

### Hacı Məmmədovun ərizəsi Ali Məhkəməyə daxil oldu - yeni gəlişmə

yazısı səh.3-də

### Deputatdan ilginc Amerika-Azərbaycan müqayisəsi

yazısı səh.10-da

### Nardaranda növbəti əməliyyat: bir nəfər tutuldu

yazısı səh.4-də

### Ödənilməyən kreditlər - çıxış yolu nədir?

yazısı səh.12-də

### Əməkdaşımız Çexiyanın paytaxtında gördüklərindən yazır

yazısı səh.11-də

## Mərkəzi Bank dollar bazarında "idarəedilən xaos" yaratdı

# ÜÇÜNCÜ MANAT "ZƏLZƏLƏSİ" - DOLLAR 2 MANATA YAXINLAŞIR

Fevral və dekabr devalvasiyasından sonra yanvarın 8-də ölkə daha bir şok yaşadı; bazarlarda yeni bahalaşma başladı - siqaretin və ərzaq məhsullarının qiyməti dərhal qalxdı; qızıl rekord "vurdu" - 1 qram 70 manat, Mərkəzi Bankın qərarlarını sayan yoxdur, yoxsa...




yazısı səh.5-də

## Bakıda Taxıl Kombinatının direktoru qətlə yetirildi

Qalib Bağırovun Hövsandakı bağ evində tamah məqsədilə öldürüldüyü bildirilir; digər versiyalar da istisna deyil; cinayəti törədənlər hələlik tutulmayıb...

yazısı səh.2-də



*Pənah Hüseyn:*

### "Spontan etirazların olması daha çox gözləniləndir"

yazısı səh.7-də



*Zahid Oruc:*

### "Əli Kərimli ölkəni də AXCP-nin gününə salar"

yazısı səh.7-də



*Vüqar Bayramov:*

### "Azərbaycan limit çərçivəsində borclanmaya getsin"

yazısı səh.8-də



# Prezidenti İmişlidə yol tikintisinə 1,1 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev İmişli rayonunun Sarıxanlı-Boşçalılar-Cəfərli-Əliqulular avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, 15 min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Sarıxanlı-Boşçalılar-Cəfərli-Əliqulular avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə Prezidentin ehtiyat fondundan İmişli Rayon İcra Hakimiyyətinə 1,1 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

# Azərbaycanda vergidən yayınan 57 nəfər həbs edildi

**2015-ci ildə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə 1853 cinayət işi başlanıb.**



Vergilər Nazirliyindən BAKU.WS-ə verilən məlumata görə, bu işlər üzrə aparılan araşdırmalar zamanı 69,5 milyon manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Departamentin İstintaq idarəsində 815 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 57 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 71 iş üzrə 83 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib. 576 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə onların icraatına xitam verilmişdir ki, bu da 2014-cü illə müqayisədə 379 iş çoxdur.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 44 nəfər şəxs tutularaq Departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 511 şəxsin məcburi qaydada gətirilməsi, 533 şəxsin tapılaraq istintaqa gəlməsi, 542 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilib.

Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 461 nəfər vergi ödəyicisi tapılaraq onların müvafiq vergi orqanlarına gəlməsi təmin olunub.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.50 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Bakıda Taxıl Kombinatının direktoru qətlə yetirildi

Qalib Bağırovun Hövsandakı bağ evində tamah məqsədilə öldürüldüyü bildirilir; digər versiyalar da istisna deyil; cinayəti törədənlər hələlik tutulmayıb...

**Son günlər ölkədə dəhşətli, tamah məqsədi ilə törədilən qətllərin sayı artıb. Xüsusi ilə imkanlı adamların öldürülməsi bir tendensiya halını almaqdadır.**

Yanvarın 8-də Bakıda daha bir amansız qətl baş verib. Taxıl Kombinatının direktoru Qalib Bağırov Hövsan qəsəbəsindəki bağ evində öldürülüb.




1963-cü il təvəllüdlü Bağırov Qalib Afil oğlunu naməlum şəxslər 8 bıçaq zərbəsi ilə qətlə yetiriblər. Mərhumun meyiti üzərində boğulma əlamətləri də olub.

APA-ya açıqlamasında mərhumun oğlu Pənah Bağırov bildirib ki, atası evdə tək yaşayıb: "Qətlin kimin tərəfindən və hansı məqsədlə törədildiyini bilmirik. Hadisəni törədən şəxslər evin altını-üstünə çeviriblər. Polis əməkdaşları mənim də izahatım alıb. Ümid edirik ki, qətli törədən şəxslər tezliklə tapılacaq".

Direktorun qətli ilə bağlı cinayət işi başlanması barədə Bakı şəhər Prokurorluğunun yaydığı məlumatda qeyd olunub ki, Q.Bağırovun üzərində xəsarətləri olan meyiti yaşadığı evdə aşkar edilib.

Faktla bağlı Suraxanı Rayon Prokurorluğunda CM-nin 120.2.11-ci (quldurluq, hədə qorxu ilə tələb etmə ilə əlaqədar qəsdən adam öldürmə) və 181.3.3-cü (quldurluq, zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmaqla törədildikdə) maddələri ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib. Cinayəti törətmiş şəxs və ya şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Cinayət hadisəsi ilə bağlı məhz 120.2.11 və 181.3.3 maddələri ilə cinayət işi başlanılması onu düşünməyə əsas verir ki, artıq istintaqçılar cinayətin motivi və onu törədən şəxs və ya şəxslər barədə ilkin faktlara malikdirlər. Yəni artıq istintaqçılara qətlin quldurluq, hədə qorxu ilə tələb etmə ilə törədilməsi bəllidirsə, deməli ortada ilkin versiya və ya buna dair ilkin sübutlar var ki, cinayət işi məhz həmin maddələr üzrə başlanıb.

Amma bir məqam da maraqlıdır ki, evi alt-üst edib qətl törədənlər oradan heç nə aparmayıblar. Ancaq hadisə yerindən mərhum Qalib Bağırova məxsus mobil telefon tapılmayıb. Ehtimala görə, Bağırovun öldüyünü güman edən şəxslər izi itirmək məqsədilə onun mobil telefonunu özləri ilə aparıblar...

Ekspertlər son vaxtlar tamah və quldurluq məqsədi ilə cinayətlərin sayının artmasını təhlükəli tendensiya hesab edir və bunu məlum devalvasiyadan sonra yaranan sosial, həmçinin psixoloji gərginliklə də əlaqələndirirlər. Bu baxımdan hüquqçular hesab edir ki, qarşıdakı müddətdə kriminogen durum heç də ürəkaçan olmaya bilər.

❑ T.ƏHMƏDLİ

# Vergilərin idarə rəisi topdansatış mərkəzlərinin işini iflic etdi

**5 saylı ərazi vergilər idarəsi Şirvan, Hacıqabul, Salyan və digər ətraf rayonlarda sahibkarların işini iflic edib. Sahibkarlar "Yeni Müsavat"a müraciət edərək bildirirlər ki, idarə rəisi Ədalət Fərəcovun göstərişi ilə rayonların ərazisində reydlər keçirilir: "Guya bu reydlər qanunidir və spirtli içkilərin, siqaretin yeni qaydalara əsasən satılması üçündür. Məsələn bu gün təkcə Şirvan şəhərində bütün topdansatış mərkəzləri, iri mağazalar bağlanıb. Çünki Ədalət Fərəcovun göstərişi belədir ki, sahibkar haqq-nahaq cərimələnə, sanksiya ilə üz-üzə qala bilər. Adını qoyur ki, guya siqaret və spirtli içkini qeydiyyata alırlar. Sanki sahibkarın belini qırmağa, işini iflic etməyə tamarzıdırlar. Ziyanın içində itib-batırıq. Bu yandan da vergilər bizə süni problem yaradır".**

Sahibkarlar deyirlər ki, idarə rəisinin əməllərindən beziblər: "Bircə o qalıb desinlər ki, işini-gücünü, obyektini ver bizə, get otur evində. Şirvanda yanacaqdoldurma məntəqələrinin sahiblərini yanına çağırır. Məsələn balaca "zapravka"nın sahibinə deyir ki, ayda 1500 ödəyirdin, indi 3000 verəcəksən. Verməyəni qorxudur ki ağır cərimə, sanksiya yazacağıq. Sahibkar vergini vaxtında ödəyir, əlavə pul alırlar. Deyirlər ki, nazirin Fazil Məmmədovun göstərişidir. Verməyənə ağıllarına gələn cəriməni yazırlar. İllik də alır. Sahibkarlar bilmirlər kimə müracət etsinlər".

Sahibkarlar spirtli içki və siqaretlərin satışı ilə bağlı yeni qaydalar oturuşdurulana qədər onların çökdürülməsi ilə nəticələnən cərimələrin tətbiqinin dayandırılmasını istəyirlər: "Çünki qanundan Ədalət Fərəcov kimi idarə rəisləri sahibkarların işinin iflic olunması üçün istifadə edirlər".

❑ E.HÜSEYNOV

# Azərbaycanda vergidən yayınan 57 nəfər həbs edildi

"Atletlər kəndi"ndəki müdhiş qəzanın məhkəmə araşdırması başladı

**Bakı Ağır Cinayətlər Məhkəməsində I Avropa Oyunları başlamamışdan bir neçə gün öncə "Atletlər kəndi"ndə baş vermiş xoşagəlməz olayın - avtobusun atletlərin üzərindən keçməsi işi üzrə məhkəməyə hazırlıq iclası keçirilib. Yanvarın 8-də hakim Cavid Hüseynovun sədrliyi ilə baş tutan iclasda qəzanı törətmiş avtobusun sürücüsü Vəli Əhmədovun, Dövlət Avtomobil Nəqliyyatı Xidmətin sabiq rəisi Hüseyn Salamovun və "Təhlükəsiz Şəhər" Xidmətini operatoru Elçin Həsənovun anket məlumatları dəqiqləşdirilib.**

Bundan sonra zərəçəkənlər, onların nümayəndələrinin iclasa qatılmadığı səbəbindən növbəti proses yanvarın 15-nə qədər təxirə salınıb.

Yada salaq ki, iyunun 11-də baş vermiş olayla bağlı Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərinin birgə məlumatda qeyd olunurdu ki, 2015-ci il iyun ayının 11-də, saat 8.30-da, I Avropa Oyunlarının "Atletlər kəndi"nin nəqliyyat deposunda, "Bakubus" Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus avtobus hərəkət zolağından çıxaraq piyadalar üçün səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvləri Vanessa Sahinoviçə və Luna Pacerə bədən xəsarətləri yetirib.

Adları çəkilən idmançılar dərhal xəstəxanaya yerləşdirilərək onlara bütün zəruri tibbi yardımlar göstərilib, sonradan isə müalicələrini davam etdirmələri üçün Azərbaycan hökuməti tərəfindən Vyana şəhərinə göndərilmələri təmin edilib. Fakt üzrə Cinayət Məcəlləsinin 263.1-1-ci maddəsi (ehtiyatsızlıqdan zərər çəkmiş şəxsin sağlamlığına ağır zərər vurmaqla yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma) ilə cinayət işi başlanıb.

E.MƏMMƏDƏLİYEV



# QHT Şurası Quba və Şirvanda təlim keçirdi

**Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurası Quba rayonunda "QHT şəbəkəsi üçün səmərəli idarəetmə" mövzusunda təlim təşkil edib. Təlimdə Quba, Şabran, Xaçmaz və Siyəzən rayonlarında fəaliyyət göstərən 25 QHT-nin nümayəndəsi iştirak edib. Şuranın məsləhətçiləri Həsən Səmədov və Toğrul Turabov çıxış edərək layihə təkliflərinin hazırlanması və idarə edilməsi haqqında təlim iştirakçılarına ətraflı məlumat veriblər.**

Bu gün həmçinin Şirvan şəhərində Şuranın baş məsləhətçisi Amid Mirzəyev və məsləhətçi Fərid Qəhrəmanovun iştirakı ilə Şuranın 2016-cı il 1-ci maliyyə müsabiqəsi, QHT-lərin bilik və bacarıqlarının artırılması və onlara praktiki köməkliklərin göstərilməsi məqsədi ilə layihə təkliflərinin yazılması, onun idarə olunması, hesabatların elektron qəbulu prosesinə edilmiş əlavə və dəyişikliklər, eləcə də QHT-lərin illik maliyyə hesabatlarının hazırlanması mövzularında məlumatlandırma sessiyası keçirilib.

Sessiyada Şirvan şəhəri, Hacıqabul, Sabirabad və Saatlı rayonlarında fəaliyyət göstərən QHT-lərin rəhbər şəxsləri və mühasibləri iştirak edib.

Keçirilən tədbirlərdə elektron hesabatlılıq, QHT-lərin layihə hazırlığı prosesində qarşılaşdığı məsələlər və digər mövzularda geniş müzakirələr aparılıb, vətəndaş cəmiyyəti institutları nümayəndələrinin sualları cavablandırılıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 5 (6326) 9 yanvar 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Ömürlük həbs cəzası almış Hacı Məmmədovun ərizəsi Ali Məhkəməyə daxil olub. Yaxın günlərdə ərizə üzrə araşdırmaların başlanacağı gözlənilir. Redaksiyamıza daxil olan məlumatı dəqiqləşdirmək üçün Ali Məhkəmənin vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi ilə əlaqə saxladıq. Şöbədən məlumatı təsdiqlədilər. Öyrəndik ki, Ali Məhkəmə sədri Ramiz Rzayevin dərkənarından sonra ərizə üzrə araşdırmalar başlanacaq.**

# Hacı Məmmədovun ərizəsi Ali Məhkəməyə daxil oldu - yeni gəlişmə

## "Qara Kəmər" yenidən araşdırlacaq; həbsdəki generalın yaxınları prezidentə müraciət etdi



Araşdırmanın hansı qaydada aparılmalı olduğunu öyrənmək üçün "Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxışa müraciət etdik. M.Baxış bildirdi ki, H.Məmmədovun ərizəsinin araşdırılması üçün Ali Məhkəmənin Plenumuna təqdimat verilə bilər: "Cinayət Prosessual Məcəllənin 464.1 maddəsinə əsasən yeni açılmış hallarla əlaqədar məhkəmənin hökm və ya qərarına baxılması haqda ərizə vermək hüququna kasasiya şikayəti, kasasiya protesti və ya təqdimat vermək hüququ olan şəxslər malikdirlər. Hacı Məmmədovun ərizəsi Ali Məhkəməyə daxil olubsa, Ali Məhkəmə sədrinin təqdimatı ilə Plenuma çıxarılacaq.

Ali Məhkəmənin sədri yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqda ərizəyə baxılmasını Ali Məhkəmənin hakimlərindən birinə tapşırmalıdır. Hakim həmin ərizə üzrə araşdırma aparıb müvafiq rəy hazırlamalıdır. Hakim ərizəni baxılmamış saxlamaq hüququna malikdir. Və ya ərizədə göstərilənlər hökm və ya qərarda göstərilənləri şübhə altına alırsa, ərizə üzrə yeni icraat açılması haqda qərar verə bilər. Hakim ərizə üzrə araşdırma apararkən prokurora müvafiq göstərişlər verə, yeni hal üzrə araşdırmaların aparılmasını tapşıra bilər. Yeni açılmış hal üzrə hakim müvafiq xüsusi araşdırmalar aparır və nəticədə rəy tərtib edərək Ali Məhkəmə sədrinə təqdim edir. Bundan sonra sədr məsələni müvafiq qərar verilməsi üçün Ali Məhkəmənin Plenumuna çıxarır".

M.Baxış bildirdi ki, Ali Məhkəmə Plenumu Hacı Məmmədovla bağlı çıxarılan qərarları ləğv edə və təkrar araşdırma üçün işi digər instansiya məhkəmələrinə göndərə bilər: "Yeni açılmış hallarla bağlı Ali Məhkəmə Plenumu həmin işi ləğv edə və apelyasiya instansiyasına, hətta birinci instansiya məhkəməsinə qaytara bilər. Digər hallarda işin ibtidai istintaqa qaytarılması mümkün deyil".

### Hacı Məmmədovun bacısı: "Yenidən istintaq araşdırması olacaq"

Hacı Məmmədovun bacısı Arifə Məmmədova bir müddət əvvəl "Yeni Müsavat"a açıqlama verərək bildirib ki, qardaşını MTN-də son 10 il faktiki girov vəziyyətində saxlayıblar. A.Məmmədovanın sözlərindən aydın olub ki, Hacı Məmmədov işin yenidən araşdırılmasını tələb edir. Buna görə də ona yeni vəkil tutulub. A.Məmmədova "Qabaqda proseslər var. Hacı nə bilirsə, açıb deyəcək. Tələsməyin, hər şey ortaya çıxacaq. Yenidən istintaq araşdırması olacaq" - deyə bildirmişdi.

A.Məmmədova qardaşı ilə görüş zamanı etdikləri söhbətlərin mövzusunu da açıqlamışdı: "Köhnə işlərdən danışdı, dedi ki, Zakir Nəsirov günahsızdır, çıxmalıdır. Onu məcbur ediblər. Vəkili gözləyir, yazıb verəcək. O istəyir ki, bütün bu məsələlər "ofisalnı" olsun. Hər şeyi açıb deyəcək".

A.Məmmədova qardaşının illərlə susmasının səbəbinə də aydınlıq gətirmişdi: "Necə desin? Ora yerdir? Özləri "julik"in böyüyü idilər. Hər şeyi açıb deyəcəyik. İndi ona təzyiqi kim edəcək? 10 ildir ki, oradadır... Onu bu illər ərzində təzyiq altında saxlayıblar orada. Hər şeyi bir-bir deyəcək".

### Zakir Nəsirovun ailəsi prezidentə müraciət edib

Bu arada Hacı Məmmədovun sabiq rəisi, onun ifadəsi əsasında ömürlük həbsə məhkum edilmiş Zakir Nəsirovun ailə üzvləri prezidentə müraciət edib. Həbsdəki generalın yaxınları müraciətlərində qeyd ediblər ki, MTN-in keçmiş rəhbərliyinin qanunsuz əməllərindən ziyan çəkənlərdən biri də Zakir Nəsirovdur.

Z.Nəsirovun vəkili Adil İsmayılov "Yeni Müsavat"a deyib ki, hazırda MTN-in sabiq rəhbərliyinin qanunsuz əməlləri Baş Prokurorluqda xüsusi komissiya tərəfindən araşdırılır: "Həmin məlumatların bir qismi MTN olayları ilə bağlı istintaqı aparan orqana göndərilir. Elə müraciətlər də olur ki, onların təsdiqini tapmadığı barədə ərizə sahiblərinə cavab verilir. Zakir Nəsirovun ailə üzvlərinə hələ ki, heç bir məlumat verilməyib.

Vəkil "Azadlıq" qəzetinə açıqlamasında isə deyib ki, yeni açılmış hallara görə işə yenidən baxılması mümkündür: "Yeni açılmış hallarla əlaqədar müraciət həm təqsirləndirilən şəxslər tərəfindən ola bilərdi, həm də hüquq-mühafizə orqanları tərəfindən. Konkret olaraq, bu gün bizim - Zakir Nəsirovun və ya onun vəkili kimi, mənim yeni açılmış hal barədə məlumat verməyimiz mümkünsüzdür, çünki bizə məlum olanları istintaq zamanı və məhkəmə proseslərində demişdik. Hacı Məmmədovun nə isə deməsi barədə mətbuatdan oxuduqlarımızı məhkəməyə yeni açılmış hal kimi təqdim etməyi də real görmürəm. Qəzetə istinadən müraciət eləməyimiz bir qədər yersiz olardı. Amma Hacı Məmmədovun özünün əvvəllər müəyyən səbəblərdən yalan ifadə verməsi barədə Ali Məhkəməyə müraciət etməsi mümkündür. Mənim də eşitdiyimə görə, belə bir müraciət var".

Vəkil müvəkkilinə həbsindən sonra olan təkliflər haqda da danışıb: "Zakir Nəsirov özü də məhkəmə prosesində deyirdi ki, ona o vaxt müxtəlif təkliflər olmuşdu. Məsələn, ona təklif olunmuşdu ki, Daxili İşlər Nazirliyi rəhbərliyinin Hacı Məmmədovu himayə etməsi və bu işlərdən xəbəri olması haqda ifadə versin. Zakir Nəsirov da demişdi ki, mən belə bir ifadə verə bilmərəm. Zakir Nəsirova belə bir ifadə vermək təklif olunmuşdu ki, guya, Cahangir Hacıyevin həyat yoldaşının oğurlanmasını Mərkəzi Bankın sədri sifariş verib. Zakir Nəsirov buna da getmədi. O, hər dəfə təkrar edirdi ki, mən olmayan bir şey barədə ifadə verməyəcəm. Hesab edirəm ki, Zakir Nəsirovun eləmədiyi cinayətə görə bu gün həbsdə saxlanmasının səbəbi də odur. Əgər vaxtında o təkliflərə razılıq versəydi, çox güman ki, bu gün həbsdə olmayacaqdı. Çünki hələ o vaxt ona deyilmişdi ki, bu ifadələri verməsən, sonda ömürlük həbs cəzası alacaqsan. Dediklərini də elədilər".

Vəkil məhz Zakir Nəsirovun hədəf götürülməsinin səbəbini də açıqlayıb: "Hacı Məmmədov əməliyyat müvəkkili idi. Hacı Məmmədovdan sonra onun işlədiyi şöbənin rəisi Kamil Sədrəddinov həbs olundu. Bundan yuxarı artıq həmin şöbənin də daxil olduğu Baş Cinayət-Axtarış İdarəsinin rəisi gəlirdi - Zakir Nəsirov. Sonrakı mərhələlərdə də daha yuxarı - nazir müavinləri, daha nazir gəlir. Bu qaydada da gedirdilər. Amma Zakir Nəsirovda bu xətt dayandı. Zakir Nəsirov ondan tələb olunan ifadəni verəydi, davam edəcəkdi. Belə deyək, Zakir Nəsirov işlədiyi nazirliyin rəhbərliyinə qarşı qurulmuş oyunda özünü qurban verdi".

A.İsmayılov deyib ki, Zakir Nəsirovun həbsində, onunla bağlı istintaqda iştirak etmiş şəxslər sırasında "MTN işi" üzrə həbs olunanları da var: "Zakir Nəsirovla danışıq aparan və onun işi üzrə istintaqda iştirak etmiş adamlardan həbs olunanlar var".

A.İsmayılov Z.Nəsirovun tez bir zamanda azad edilməli olduğunu da söyləyib: "Çalışmaq lazımdır ki, Zakir Nəsirov tez bir zamanda azadlığa çıxmasına nail olaq. Bunu da dövlət orqanları eləməlidir. Ən azı, ona görə ki, dövlət qarşısında müəyyən xidmətləri olan adamdır. Üstəlik, yaşı da az deyil, 1947-ci il təvəllüdlüdür, bu gün-sabah 70 yaşı tamam olacaq".

Qeyd edək ki, Hacı Məmmədov və digərləri 2005-ci il martın 10-da MTN-in keçirdiyi "Qara Kəmər" əməliyyatı zamanı həbs olunublar.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Çap xərclərinə görə qəzetlər tətil edə bilərmi...



**Ələsgər Süleymanov:** "Əgər hökumət tərəfindən bununla bağlı hər hansı bir addım atılmasa..."



**Rəşad Məcid:** "Reklamların artırılması haqda müzakirələr aparılmalıdır"

**"Azərbaycan" Nəşriyyatının çap xərclərini 25 faiz artırması qəzetlərin vəziyyətini ikiqat ağırlaşdırıb. Bəs görəsən çap xərclərinə görə qəzetlər tətil edə bilərmi?**

"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov yaranmış vəziyyətin çox acınacaqlı olduğunu, hökumət tərəfindən bununla bağlı hər hansı addım atılmadığı təqdirdə etiraz etməkdən başqa çarə qalmadığını bildirib: "Mütəmadi olaraq mətbuatda etirazımızı bildiririk. Lakin hələ ki, hökumət və ya aidiyyəti qurumlar tərəfindən heç bir reaksiyaya rast gəlmirik. Bu cür durğunluq, susqunluq isə bizi daha da narahat edir. Düşünürəm ki, qəzetlər nəsə bir çıxış yolu tapmalıdır. Əgər hökumət tərəfindən bununla bağlı hər hansı bir addım atılmasa etiraz etməkdən başqa bir çarəmiz qalmayacaq".

Baş direktor bu günlərdə "Yeni Müsavat" qəzetinin qiymətinin artacağını istisna olmadığını deyib: "Qəzetin qiymətinin 10 qəpik artırılması ilə bağlı hələ keçən il sonlarında, 2-ci devalvasiyadan əvvəl qərar vermişdik. Lakin ötən ilin 21 dekabr devalvasiyasından sonra bunun heç bir əhəmiyyəti qalmadı. 10 qəpik artımı indiki qəzet kağızının və çap xərclərinin artırılması fonunda tamamilə itib-batdı. Buna görə də düşünürük ki, başqa qəzetlər kimi növbəti həftədə qəzetin qiymətini 60 qəpik olmasını müəyyənləşdirək. Başa düşürük ki, bu oxucuların vəziyyətini daha da ağırlaşdıracaq, lakin qəzetin mövcudluğunu qoruyub saxlamaq üçün bu addımları atmaqdan başqa çarə görmürük. Yalnız kağız xərcləri aşağı düşərsə, yaxud hökumət tərəfindən qəzetlərə hansısa güzəşt və ya əlavə yardımlar olarsa qəzet qiymətini artırmaya bilərik".

Ələsgər Süleymanov vəziyyətdən çıxış yolu haqda öz təkliflərini də bildirib: "Təkliflər var ki, qəzetin dövrülüyü, səhifələrinin sayı azaldılsın. Yəni qəzetimiz 16 səhifə ilə deyil, 8 səhifə ilə nəşr edilsin. Həmin 8 səhifədə ən vacib, maraqlı, seçilmiş xəbərlərin xülasəsi olsun. Oxucular xəbərlər barəsində daha geniş şəkildə isə qəzetin elektron variantından, yəni saytdan məlumat alsın. Beləliklə də qəzetin maya dəyəri, çap xərcləri də aşağı salınar, qiymətini 50 qəpik etmək şərti ilə öz mövcudluğunu, dövrülüyünü qoruyar və mütəmadi oxucuların görüşünə gələr".

"Azadlıq" qəzetinin baş redaktoru Sücəddin Şərif qəzetlərin tətil edəcəyini güman etmədiyini bildirib: "Çünki mətbuatda hazırda durum elədir ki, böyük əksəriyyəti təlimatla işləyir. Buna görə də belə bir hadisənin baş verə biləcəyini güman etmirəm. Beləliklə, baş verməsi mümkün olmayan bir hadisəyə qoşulub-qoşulmayacağımız barədə fikir deməyə çətinlik çəkirəm. Bizim görmək istədiyimiz, tələb etdiyimiz məqamlar da var".

Sücəddin Şərif "Azadlıq" qəzetinin qiymətinin situasiyadan asılı olaraq yenidən arta biləcəyini deyib.

"525-ci" qəzetinin baş redaktoru Rəşad Məcid isə çap xərclərinin artırılması ilə bağlı tətil və ya digər aksiyaları yersiz hesab etdiyini açıqlayıb: "Azərbaycanda ənənəvi olaraq nəşriyyata olan borcların prezident tərəfindən saxlanılması, dondurulması və ya bağışlanması olub... Hər halda yazılı mətbuata dövlət tərəfindən dəstək var. Buna görə də tətil və digər aksiyaları yersiz hesab edirəm. Hesab edirəm ki, bir müddət sonra hər şey qaydasına düşəcək. Bu cür inflyasiyanı bizim yaşlı nəsil 90-cı illərin əvvəllərində çox görüb. İndiki nəsil üçün isə bu təəccüblü haldır. Çünki Azərbaycan manatı bundan öncə dollarla nisbətdə nüfuz qazanmışdı".

R.Məcidin fikrincə problemin kökü reklam bazarının qıtlığı ilə bağlıdır: "Belə şəraitdə reklamların hansı formada artırılması haqda müzakirələr aparılmalıdır. Mətbuat Şurasında bununla bağlı müzakirələr gedib. Prezidentlə görüşdə də bu cür fikirlər səslənib. Reklamla bağlı müzakirələr daha aktual olar, nəinki bu tipli təkliflər. Qəzetlərin bahalaşması o qədər də effekt verə bilməz. Güman edirəm ki, hansısa qəzet öz etibarlı oxucularına güvənirsə, qiyməti qaldıra bilər. Amma bizim elə bir fikrimiz yoxdur".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 5 (6326) 9 yanvar 2016

**Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin qohumu və keçmiş milli-təhlükəsizlik naziri Eldar Mahmudova yaxın adam kimi tanınan Dünyamin Xəlilovun həbsi "maliyyə xəyanəti" işinin genişlənəcəyi haqda müzakirələri bir qədər qızışdırıb. Belə iddialar var ki, Eldar Mahmudovu da "Beynəlxalq bank işi" üzrə həbs edə bilərlər. Sabiq nazirin ilk devalvasiyadan - fevralın 21-dən bir neçə gün əvvəl Cahangir Hacıyevlə birgə özlərinə və yaxın ətraflarına məxsus olan və manatda saxladıqları pulları Beynəlxalq Bankdakı bir neçə yüz milyon dollarla əvəz ediblər. Həmin vaxt bu əməliyyatın ölkə rəhbərliyindən gizli şəkildə həyata keçirilməsi Eldar Mahmudovun səyləri nəticəsində, birbaşa onun göstərişləri ilə mümkün olub.**

# "Cahangir Hacıyev qudasını da özü ilə həbsə aparır" iddiası

## Həbsə alınan Dünyamin Xəlilovun Beynəlxalq Bankdan 2 milyard kredit aldığı üzə çıxdı

Sonradan isə məsələnin üstü açılıb. Tamamilə mümkündür ki, E.Mahmudovu da "MTN işi" ilə bərabər "Beynəlxalq bank işi"nə də cəlb etsinlər.

Bundan başqa Cahangir Hacıyev həbsindən sonra durmadan şikayətlər edir, diqqəti daha çox maliyyə naziri Samir Şərifovun üzərinə çəkməklə bankdakı əməliyyatlara onun nəzarət etməli olduğunu vurğulayır. Görünən odur ki, C.Hacıyev danışdıqca, şikayətlərinin sərhədlərini genişləndirdikcə onun yaxın ətrafına daxil olan şəxsləri də həbsə alırlar.

"Beynəlxalq Bank işi" yenicə gündəmə gələndə Dünyamin Xəlilovun adı medianın diqqətində idi. Lakin sonradan onun adı mətbuat səhifələrinə getdikcə az çıxırdı və demək olar ki, tamamilə unudulmuşdu. Onun həbsindən az əvvəl Britaniyanın məşhur geyim mağazaları brendi "Harvey Nichols" ötən il gəlirlərinin 30 faiz azaldığını və bunun səbəblərindən birinin Azərbaycandakı uğursuz fəaliyyəti olduğunu açıqlayanda keçmiş deputat-oliqarx Dünyamin Xəlilovun adı yenidən media gündəminə gəldi. "Harvey Nichols" Azərbaycanda keçmiş deputatın adına olan "General Construction" adlı offşor şirkətlər françayzinq müqaviləsi əsasında ona məxsus "Globus Plaza"da fəaliyyətə başlasa da cəmi 4 ay sonra partnyorların öhdəliklərini pozması səbəbindən müqaviləni dayandıraraq ölkəni tərk edib.

Dünyamin Xəlilovu ötən il Beynəlxalq Bankından milyardlarla manat kreditin talanmasına görə saxlamışdılar, lakin sonradan onu sərbəst buraxdılar. Əvəzində onun şirkətinin heç bir səlahiyyət daşımayan 7 əməkdaşı DİN-in Baş Mütəşəkkil


Cahangir Hacıyev


Eldar Mahmudov

Cinayətkarlıqla Mübarizə İdarəsinin zirzəmisinə salınmışdı. Çünki Cahangir Hacıyev və ortaqları bu dəfə də tanış dələduzluq sxemini işə salmışdılar - nəhəng məbləğlərdə kreditlər Dünyamin Xəlilovun şirkətində faktiki olaraq dəftərxana işçisi, elektrik və digər xırda-para işlərdə işləyən adamların adına rəsmiləşdirmişdi.

Britaniya brendinin Azərbaycandakı uğursuz tərəfdaşlıq barədə açıqlamasının yayılmasından sonra jurnalistlər adı bir müddət mətbuat səhifələrində görünməyən Dünyamin Xəlilovun indi harada olduğunu araşdırmağa çalışdılar. Və məlum oldu ki, keçmiş deputat elə bir neçə gün əvvəl həbs edilibmiş.

Virtualaz.org istintaqa yaxın mənbələrdən dəqiqləşdirib ki, Dünyamin Xəlilov Azərbaycan Beynəlxalq Bankından nəhəng məbləğlərdə kredit götürərək onu "General Construction" MMC-nin, habelə digər offşor şirkətlərin adına rəsmiləşdirib. Sayt mötəbər mənbəyə istinadla yazır ki, Dünyamin Xəlilovun Beynəlxalq Bankdan götürdüyü kreditlərin məbləği 2 milyard manata yaxındır. Mənbə bildirib ki, ötən il dekabrın 29-da Dünyamin Xəlilov dindirilmək üçün növbəti dəfə "Bandotdel"ə çağırılıb və bu dəfə oradan çıxmayıb. Onu həbs ediblər, ertəsi gün dekabrın 30-da isə keçmiş deputatın 8 aya yaxındır həbsdə olan 5 keçmiş əməkdaşı azadlığa buraxılıb.

Xatırladaq ki, 2005-ci ildə Dünyamin Xəlilov Beynəlxalq Bankın səhmdarlarından biri idi. O, 2005-2010-cu illərdə Milli Məclisin deputatı olub. D.Xəlilov uzun müddət C.Hacıyevə məxsus "Şəki Bazar" ASC-ni və "Şəki Ət Kombinatı" ASC-ni idarə edib. Milyardlarla manatlıq dələduzluq sxemində Cahangir Hacıyev və Dünyamin Xəlilov tək deyil. Həmin "General Construction" şirkətinin digər ortağı, hazırda Fransada sərbəst gəzib-dolaşan və biznes fəaliyyətini davam etdirən Xaqani Bəşirovdur. Fransa və Azərbaycan vətəndaşlığı daşıyan Xaqani Bəşirovun adına təxminən 2 il əvvələ qədər 14 offşor şirkət olub, hazırda isə o, 2 şirkətdə direktor kimi qalır. Bunlar Britaniya Virgin adalarında qeydiyyatdan keçmiş "Java Investments Management PLC" və " V.e.s Consultancy (Uk) LTD" şirkətləridir. Qalanlarında isə iştirakını dayandırıb.

❑ E.HÜSEYNOV

# Natiq Kərimovun həbsinin əsl səbəbi haqda yeni məlumat

## Nardaranlı ixtiyarın Səudiyyə Ərəbistanı ilə İranın ixtilafının güdazına getdiyi deyilir

**Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimov yanvarın 6-da Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyat zamanı saxlanılmışdı. Bir gün DTX-da dindirildikdən sonra Səbayel Rayon Məhkəməsinə aparılan N.Kərimov haqda 4 aylıq həbs qətimkan tədbiri seçilib.**

N.Kərimov Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və ya müdafiə qabiliyyəti zərərinə olaraq Azərbaycan Respublikasının vətəndaşı tərəfindən qəsdən törədilən əməl: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini xarici dövlətə vermə, Azərbaycan Respublikasına qarşı düşmənçilik fəaliyyəti aparmaqda xarici dövlətə, təşkilata və ya onların nümayəndələrinə kömək etmə) maddəsi ilə ittiham olunur.

Musavat.com N.Kərimovun həbs edilməsinin əsas səbəbi haqda ilginc məlumat əldə edib. Məlumata görə, N.Kərimovun həbs edilməsinin əsas səbəbi bir neçə gün əvvəl Nardaran Ağsaqqallar Şurasının adından İran-Səudiyyə Ərəbistanı münasibətləri ilə bağlı yayılan bəyanatdır. N.Kərimovun imzası ilə yayılan bəyanatda iki ölkə arasında yaranan gərginlikdə S.Ərəbistanı hökuməti sərt şəkildə tənqid edilirdi.

Bəyanatda şiə alimi Ayətullah Nimr əl-Nimrinin edamı S.Ərəbistanı hökumətinin dövlət səviyyəsində törətdiyi bir terror kimi qiymətləndirilirdi. Nardaran ağsaqqalları bu bəyanatda hökuməti ərəblərlə əlaqələri kəsməyə dəvət etməklə yanaşı, Azərbaycanda bu edama haqq qazandıranları da sərt tənqid edirdi.

"Müsəlman dünyası həmin olayı İslama qarşı bəşəri cinayət kimi qiymətləndirməli, belə qaniçən rejimlərlə bütün əlaqə və münasibətləri birdəfəlik kəsməlidir.

Səudiyyə rejiminin bu addımı məhz Amerika və dünya sionizminin ideyası olaraq İslam aləmində təriqətlərarası düşmənçilik və qarşıdurmaya xidmət göstərir. Belə xidmətçilərdən biz də xali deyilik. İçərimizdə elə "müxalifət" təmsilçiləri vardır ki, bu cinayətə haqq qazandırmaq üçün əsl İslam dövlətinə qarşı saxta arqumentlərlə çıxış etməyi özlərinə rəva bilir, xarici, xüsusən də Qərb himayədarlarına sadiq olduqlarını sübuta yetirməyə çalışırlar"- deyə bəyanatda bildirilib.

Məlumata görə, N.Kərimovun bu addımı hökumətin ciddi qəzəbinə səbəb olub. Güman olunur ki, İran və Səudiyyə Ərəbistanı arasında baş verən gərginlikdən sonra ölkə rəsmilərinin heç bir bəyanat vermədiyi, tərəf tutmadıqları bir vaxtda Nardarandan belə bir bəyanatın verilməsi hökuməti qəzəbləndirib. Azərbaycan hökumətinin iki ölkə ilə də münasibətlərdə maraqlı olduğu bir vaxtda Nardarandan bu cür addımın atılması qəbul edilməz hesab edilib. N.Kərimovun Nardaran sakinləri, ağsaqqalları adından mətbuata mütəmadi açıqlamalar verməsi onsuz da hüquq-mühafizə orqanları tərəfindən xoşagəlməz hadisə kimi qiymətləndirilirdi. Bu bəyanat isə stəkanı daşdıran son damla olub.

N.Kərimov "Nardaran hadisələri"ndən sonra ötən ilin dekabrında saxlanılmışdı. O, prokurorluqda dindirildikdən sonra sərbəst buraxılmışdı. N.Kərimov o zaman sırf "Nardaran hadisələri" ilə bağlı dindirilmişdi.


Natiq Kərimov

Sonuncu bəyanatdan bir gün sonra N.Kərimov bu dəfə MTN-nin balansında yaradılan DTX tərəfindən saxlanıldı. Bu dəfə isə o, Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə ittiham olundu.

N.Kərimovun həbsi ilə bağlı DTX-nın yaydığı məlumatda bildirilir ki, N.Kərimovun xarici xüsusi xidmət orqanı əməkdaşları tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək uzun müddət həmin orqan tərəfindən verilən tapşırıqları yerinə yetirməsi, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi zərərinə casusluq edərək dövlətə xəyanət etməsinə dair əsaslı şübhələr müəyyən olunub. Və buna görə də o, həbs olunub.

❑ Musavat.com

# Nardaranda növbəti əməliyyat: bir nəfər tutuldu



**Nardaranda növbəti əməliyyat keçirilib. Musavat.com xəbər verir ki, Sabunçu Rayon Polis İdarəsi və Bakı Şəhər Baş Polis İdarəsi Nardaranda əməliyyat keçirib.**

Nardaran qəsəbəsi, A.Zeynallı küçəsində yaşayan 1992-ci il təvəllüdlü Sahib Əliyevin evinə baxış keçirilib. Bu zaman evdən 13 ədəd 12 kalibrli patron, 1 ədəd qələm formalı tapança, 7,65 kalibrli patron gilizi və 1 ədəd plasmas maska aşkar edilərək götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin 228-ci maddəsi ilə cinayət işi açılıb. Sahib Əliyev tutulub.

❑ İlkin MURADOV

YENİ MÜSAVAT
N 5 (6326) 9 yanvar 2016

## Mərkəzi Bank dollar bazarında "idarəedilən xaos" yaratdı

**Ölkə fevral və dekabr devalvasiyasından sonra yanvarın 8-də daha bir şok yaşayıb. Yanvarın 8-də 1 dollar 1 manat 85 qəpik olub. Banklara nisbətən valyutadəyişmə məntəqələrində satış və alış qiyməti daha yüksək olub. Məsələn, "Yunayted kredit bank"ın Nəsimi şöbəsində dolların alışı 1.80, satışı isə 1.85, "NBC Bank"ın 2 saylı mübadilə şöbəsində alış 1.72, satış isə 1.78 manata təklif edilib.**




# Ölkədə üçüncü manat "zəlzələsi" - dollar 1.85 oldu

## Fevral və dekabr devalvasiyasından sonra yanvarın 8-də ölkə daha bir şok yaşadı; bazarlarda yeni bahalaşma başladı - siqaretin və ərzaq məhsullarının qiyməti dərhal qalxdı; qızıl rekord "vurdu"- 1 qram 70 manat, Mərkəzi Bankın qərarlarını sayan yoxdur, yoxsa…

Mərkəzi Bankın yanvarın 8-də rəsmi valyuta məzənnələrinə əsasən, ABŞ dollarının məzənnəsi 1,5642 AZN/USD, avronun - 1,7009 AZN/USD təşkil edib. Mərkəzi Bank yanvarın 11-dək olan ABŞ dollarının manata qarşı məzənnəsini də açıqlayıb. AMB-dən verilən məlumata görə, yanvarın 11-ə USD/AZN rəsmi məzənnəsi 1,5642 səviyyəsində müəyyən olunub. Amma göründüyü kimi, Mərkəzi Bankın müəyyən etdiyi məzənnəni nə sayan, nə ciddiyə alan...

Yeri gəlmişkən, "Yeni Müsavat" 7 yanvar sayında gözlənilən devalvasiyadan yazaraq dollar ajiotajında Mərkəzi Bankı ittiham etmişdi. Yazıda bildirilirdi ki, Mərkəzi Bank yanvarın 6-da dollar satışı həyata keçirməyib və bazarda yaranmış gərginliyi daha da artırıb. "Mərkəzi Bank dolları satışa çıxarmır, sonra isə "dollar niyə qıtdır və niyə bahalaşıb?" deyə yalandan haray salır. Aydındır ki, yaxınlaşmaqda olan üçüncü devalvasiyada Mərkəzi Bank öz dollar rezervlərini banklara dağıtmaq niyyətində deyil və bu səbəbdən də dollar satışında məhdudiyyətlər qoyub. Görünən odur ki, maliyyə sektorunun rəhbərləri üçüncü devalvasiyanı "dollar ajiotajı" ilə ört-basdır etmək niyyətindədir və əslində manatın ucuzlaşdırılması prosesini məhz Mərkəzi Bank yaradır" deyə, yazıda bildirilirdi.

Qeyd edək ki, bu günlərdə qüvvəyə minən yeni qaydalara əsasən, Azərbaycandakı banklara əməliyyat günü ərzində valyuta məzənnələrini sərbəst şəkildə dəyişdirmək hüququ verilib. Həmçinin, mübadilə şöbəsində bir müştəriyə 500 ABŞ dollarına ekvivalent məbləğdən artıq mübadilə əməliyyatı şəxsiyyəti təsdiq edən sənəd əsasında aparılır.

Mərkəzi Bank dollar satışı ilə bağlı vəziyyət nəzarətdən çıxdıqdan sonra günün sonunda valyutanın satış məzənnəsinin alış məzənnəsindən kənarlaşma həddi ilə bağlı banklara məktub göndərib. APA xəbər verir ki, məktubda bildirilir ki, banklar satış məzənnəsinin alış məzənnəsindən kənarlaşma həddi kimi 4%-lik limitə əməl etməlidir. Əvvəllər bu limit 2% səviyyəsində idi. Başqa sözlə, banklar xarici valyutanın alqı-satqısı zamanı AMB-nin müəyyən etdiyi rəsmi məzənnədən 4% kənarlaşa bilər.

***

Manatın faktiki üçüncü devalvasiyasından dərhal sonra bazarlarda bahalaşma başlayıb. İlk olaraq siqaretin qiyməti 25 faiz bahalaşıb. "Winston Classik" 50 qəpik bahalaşaraq 3 manat 20 qəpik olub. "Davidoff" 3 manat 50 qəpik, "Davidoff"-qalın 3 manat 80 qəpik, "West" 2 manat 60 qəpikdən satılır. "Kent" siqaretləri 3 manat 50 qəpikdən - 4 manatadəkdir. "Viceroy" siqaretlərinin qiyməti 1 manat 50 qəpik- 2 manat 20 qəpik arasında dəyişir. Ərzaq, elektrotexnikalar və tikinti mallarının da qiymətində dərhal dəyişikliklər edilib. "28 May" stansiyasının yaxınlığındakı əsas topdansatış mərkəzlərində siqaret satışı dayandırılıb. Topdansatış mərkəzinin satıcıları deyib ki, qiymətlər təxminən 20-50 qəpik arasında dəyişir və yəqin ki, şərab, araq və pivələrin qiyməti də artacaq.

Musavat.com xəbər verir ki, sahibkarlar malların yeni qiymətini dolların indiki kursuna uyğun olaraq müəyyənləşdirirlər.

"Dekabrın 21-dəki devalvasiyada dolların kursu 1.55 manat idi. İndi isə bazarda dollar 1.85 manatdır. Bu da bizim işimizə əlbəttə təsir edir" deyə, elektron malların satışı ilə məşğul olan Nicat Məmmədov deyib. "Kontak electroniks" mağazasında artıq qiymətlər dəyişib. İphone 6 (16 Gb) 1439-1499 manata satılır. Bu isə yanvarın 7-də olan qiymətdən 100-120 manat bahadır. Üz tutduğumuz "İntegral Plus" məişət texnikası mağazasında isə qiymətlər dəyişməmişdi. Lakin mağaza əməkdaşları bildirdi ki, malların qiymətinin qalxacağı gözlənilir. Bu dolların kursuna uyğun olaraq müəyyənləşdiriləcək.

"Bütün bu mallar ölkəyə dollarla gətirilir. Təbii ki, dolların kursuna uğun hesablanacaq. Ən gec sabah(bu gün) qiymət artımı özünü göstərə bilər" deyə, mağaza əməkdaşı bildirib.

"Samsung" mağazalar şəbəkəsi də qiymətlərin qaldırılacağı anonsunu verib. Mağazanın "Neftçilər" filialından bildirilib ki, qiymətlər bahalaşması qaçılmazdır.

Manatın üçüncü dəfə ucuzlaşması qızılın qiymətinə də ciddi təsir edib. Yanvarın 8-də Bakının zərgərlik köşklərində bir qram qızılın qiyməti 70 manatadək bahalaşıb.

Əhalinin daha çox əziyyət çəkdiyi ərzaq mağazalarında da dərhal qiymətlərə "əl gəzdirilib". Şəhərin mərkəzindəki demək olar ki, bütün iri supermarketlərdə ərzaq məhsullarının qiymətində 1-3 manat arası artım olub. Eyni zamanda, şampunların, yuyucu tozlarının, diş pastalarının qiymətində də 50 qəpik 1 manat arasında bahalaşma baş verib. Marketlərdə alıcılara deyiblər ki, bu hələ son hədd deyil və qiymət artımının qarşısını almaq mümkünsüzdür.

***

Qeyd edək ki, yanvarın 8-də hökumət rəsmilərindən bir nəfər belə baş verənlərlə bağlı heç bir açıqlama verməyib. Bu isə ölkənin maliyyə bazarında Mərkəzi Bank tərəfindən "idarəedilən xaosu" daha da dərinləşdirib. Qarşıdakı günlərdə də manatın dollara nisbətdə daha da zəifləyəcəyi gözlənilir...

❑ **İlkin MURADOV, "Yeni Müsavat"**

# Daşınmaz əmlak bazarı ilə bağlı təzadlı proqnozlar...

## İlin sonuna mənzillərin iki dəfəyə qədər ucuzlaşacağı da istisna edilmir...

**İkinci devalvasiyadan sonra ölkənin mənzil bazarında vəziyyət müəmmalıdır. Ekspertlər də ev bazarındakı qiymətlərlə bağlı vahid fikrə gələ bilmirlər; proqnozlar təzadlıdır. Bəzi ekspertlər mənzil bazarında canlanmanın olacağını və qiymətlərin bahalaşacağını ehtimal etsələr də, əksəriyyət yaxın aylarda qiymət enməsinin müşahidə ediləcəyini vurğulayıb.**

Daşınmaz əmlak üzrə ekspert Nüsrət İbrahimovun sözlərinə görə, manatın dəyərdən düşməsi və dolların bahalaşması ilə əlaqədar evlərin də qiyməti artacaq: "Tikinti materiallarının qiymətləri də qalxdır. Materiallar bahalaşdıqca da evlərin qiyməti qalxacaq. Kimsə evlərin qiymətinin bundan da aşağı düşəcəyini gözləməsin, mənzil almaq istəyən indi alsın. Taxtanın kubu 180 manatdan 300 manata, armaturun qiyməti isə 700 manatdan 1050 manata qalxıb. Nə qədər ki, bu bahalıq ev qiymətlərinə təsir etməyib, insanlar mənzil almağa tələssinlər. Bunun üçün əla fürsətdir. Mənzil qiymətləri ən aşağı səviyyələrə enib, 22-23 faiz ucuzlaşma var. İki-üç ay sonra isə tam fərqli və baha qiymətlər olacaq. Daxili bazarda alqı-satqı manatla aparılır, yerli məzənnə dollar qarşısında dəyər itirdikcə evlərin manatla qiyməti də o qədər qalxacaq".

Ekspert Ramil Osmanlı musavat.com-a açıqlamasında qeyd edib ki, ev bazarında vəziyyət ürəkaçan deyil: "Evlərin bahalaşacağı barədə proqnoz verənlər sadəcə bunu arzu olaraq bildirirlər. Mən də çox arzulayıram ki, həqiqətən evlər artsın. Qiymətin artması üçün səbəb bazarda dinamikanın artmasıdır. Dimamikanın artması da müəyyən amillərdən, şərtlərdən asılıdır. Həm makroiqtisadi baxımdan, həm ölkə daxilində iqtisadi vəziyyətin müsbətə doğru dəyişməsi ilə müşayiət oluna bilər. Bu isə hələ ki, mümkün görsənmir. Hesab etmirəm ki, daşınmaz əmlak bazarında qarşıdakı dövrdə qiymət artımı ilə bağlı hər hansı bir səbəb baş verə bilər. Çünki bunu şərtləndirən heç bir səbəb müşahidə olunmur. Faktiki olaraq makroiqtisadi göstəricilərin azalması baş verir. Azərbaycanın gəlirləri azalmaqda davam edir, xüsusən də neft gəlirləri aşağı düşür. Bu şəraitdə təbii ki, daşınmaz əmlak bazarında qiymət artımını şərtləndirən, stimullaşdıran konkret bir səbəb müşahidə etmək üçün yalnız dövlət tərəfindən atılacaq addımları gözləmək olar. İstər ipoteka kreditlərinin artırılması baxımından, istərsə də şəhərsalma, infrasruktur layihələrinə vəsaitlərin artırılması baxımından şərtlər məhdud görsənir. Bu baxımdan hesab edirəm ki, 2016-cı ilin ən azından ilk yarısı üçün qiymət artımı baş verməyəcək. Qiymətlərin azalmasına gəlincə, bununla bağlı terminləri az işlətmək lazımdır. Bazarı bir qədər də kritik vəziyyətə gətirir. Müəyyən potensial alıcı kütləsi var ki, biz onu əslində bazara cəlb etməkdə daha maraqlı olmalıyıq. Qiymət azalması ilə bağlı proqnozlar alıcıları bazardan uzaqlaşdırır. Qısamüddətli dövr üçün, 2016-cı ilin birinci rübündə nisbi qiymət azalmaları olacaq. Qiymət azalması dinamik olmayacaq, 3-5 faiz təşkil edəcək".



Ramil Osmanlı

Ekspert Rəşad Əliyev isə qeyd edib ki, fevral devalvasiyasında satıcılar birmənalı olaraq qiymətləri qaldırdılarsa, bu dəfə bir qədər fərqli oldu: "Fevral devalvasiyası nəticəsində qiymətlər 10-25 faiz intervalında artdı, sonra isə düşməyə başladı. Bu dəfə satıcılar o qədər inamlı ola bilmədilər. Hələ ki, bazar haqqında dürüst məlumat azdır, ancaq məlumdur ki, qiymət artımı təkrar bazarda cüzi olub. İlkin bazarda isə qiymət artımı qaçılmazdır. Gələcək perspektiv isə bazarın seqmentindən asılı olacaq. Təkrar bazarda vəziyyət makroiqtisadi vəziyyətdən asılı olacaq".

Ekspertin sözlərinə görə, əslində 2016-cı ildə daşınmaz əmlak bazarında qiymətlərə təsir edəcək amillərin sayı o qədər olacaq ki, konkret proqnozun verilməsi çətinlik yaradır: "Bu amillərin bəziləri qiymət artmasına, digərləri isə qiymətlərin enməsinə təsir göstərəcək. Dollar qiymətlərinə mənfi təsir edən yeganə səbəb hazırki makroiqtisadi şəraitin hökm sürməsi olacaq. Şəraitin pisləşməsi bazarda qiymətlərin daha da enməsinə təsir göstərəcək. Makroiqtisadi şərait isə bildiyimiz kimi, dünya bazarlarında neftin qiymətlərindən asılı olacaq. Devalvasiya silsiləsinin davam etməsi də dollar qiymətlərinin azalmasına təsir edəcək".

R.Əliyev qeyd edib ki, böhran dövrlərində vətəndaşlar daha çox likvid aktivlərə üstünlük verirlər və bu bir çox insanı daşınmaz əmlaka investisiya qoymaqdan çəkindirir: "Bank sektorunda problemlərin dərinləşməsi bank əmanətlərindən daşınmaz əmlak bazarına kapital axınını davam etdirəcək. İpoteka Fondunun bazara qayıdışı da qiymətlərə müsbət təsir göstərəcək. Bazarın seqmentləri üzrə vəziyyət fərqli olacaq. Tikinti sektorunda maya dəyərinin manat ifadəsində artması qaçılmazdır. Buna görə də dekabr devalvasiyasından sonra ilkin bazarda qiymət artımı qaçılmazdır. Bir sıra şirkətlər artıq qiymətləri artırıb. Buna görə də artıq məntiqi olaraq devalvasiyadan sonra ilkin bazarda qiymətlər manatla qalxacaq, dollar ifadəsində isə azalacaq. Təkrar bazarda devalvasiyanın təsirini demək hələ tezdir. Bilinən odur ki, qiymətlər dollarla xeyli enib, sadəcə olaraq bunun həcmini bilmirik".

Qeyd edək ki, bəzi ekspertlər qiymətlərin kəskin ucuzlaşacağını da proqnozlaşdırırlar. Ekspertlərin fikrincə, 2016-cı ilin sonuna qədər iqtisadi vəziyyət bu şəkildə davam edərsə, neftin qiyməti 60-70 dollara qalxmazsa, evlərin qiymətində heç bir artım olmayacaq. Əksinə, ilin sonunda daşınmaz əmlak bazarında qiymətlər indiki qiymətlərdən ən yaxşı halda 25-30 faiz, optimal halda isə iki dəfə aşağı olacaq.

❑ **Röya RƏFİYEVA**



# Xalq üçün “üzən məzənnə” rejimi

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**İstənilən bir işdə ən pis şey qeyri-müəyyənlikdir, ala-yarımçılıq, hədəflərin yayğınlığıdır. Təhlükə də dəqiq bilinəndə ona qarşı tədbir tökmək qat-qat asan olur, nəinki bu təhlükə iqnor olunanda, ciddiyə və vecə almayanda, dəqiq təsəvvür və təsvir etməyəndə.**

Nəyə gətiririk sözü? İlk növbədə ona gətiririk ki, bu gün Azərbaycan hökuməti manatın ABŞ dollarına nisbətdə kursundan dolayı ölkə və toplumu, həmçinin, dövlətçiliyi gözləyən ciddi təhlükələri real hesablaya bilmir. Yaxud hesablamaq istəmir və bu təhlükələrə barmaqarası baxır.

Hər halda, bir daha vurğulanmalıdır və bunu müstəqil ekspertlər də təsdiqləyir ki, rəsmilərin atdığı addımlar manatın 98%-lik dəyər itkisindən sonra yaranan duruma adekvat deyil. Heç onun 1%-i də deyil və yenə kosmetik mahiyyət daşıyır.

Vəziyyət isə gerçəkdən ağırdır və həftəbəhəftə daha da ağırlaşmaqdadır. Sanki vətəndaşlar başlı-başına, taleyin ümidinə buraxılıb. Sonuncu cümlədə “sanki” sözünü yazmamaq da olar. Çünki manatın kursu ilə birgə, xalq da faktiki, başlı-başına, “üzən məzənə” rejiminə buraxılıb.

Acı gerçək belədir ki, ABŞ dollarının kursu qalxmaqla zəruri tələbat mallarının və xidmətlərinin qiymətləri də onunla bərabər qalxır. Bu da yerli istehsalı olmayan, qeyri-nefti sektoru inkişaf etməmiş, idxalı ixracı üstələyən bir ölkə üçün xarakterikdir və hamımızı haqlı şəkildə narahat edir.

Əslində manatın kursunu saxlamaq bu gün Qarabağdan da vacib məsələyə çevilməlidir hakimiyyət üçün. Zira, hər şey torpaqları azad edəcək vətəndaşın, xalqın, əsgərin iqtisadi durumundan başlayır. Valyuta sabitliyi, uğurlu valyuta siyasəti - daxili iqtisadi-sosial sabitlik, vətəndaş barışının kövrək şəkildə də olsa qorunub saxlanması deməkdir, dövlətə yeni xarici təhlükə və təhdidlərin artmaması, ordu quruculuğuna davam deməkdir. Sadalananlar işğalçı Ermənistanı ram eləməkdən ötrü əsas şərtlərdir...

Yazının girişində qeyri-müəyyənlikdən yazdıq. Daxili və xarici siyasətdə bu, olduqca vacibdir. Ən azı o səbəbə ki, dünya, müvafiq beynəlxalq maliyyə qurumları real vəziyyətimizi dəqiq bilməlidir ki, kritik anda Azərbaycan xalqına konkret kömək əli uzada bilsin. Əgər hökumət ənənəvi şəkildə öz qüruruna salıb bu işi də görmək istəmirsə, əhalinin etiraza qalxmamasından ürəklənib guya hər şeyin qaydasında olması təsəvvürü yaratmağa çalışırsa, onda bizi manatın devalvasiyasından da betər aqibət gözləyir...

Xarici siyasət kursunun müəyyənliyinə gəlincə, Azərbaycan heç qardaş Türkiyə ilə indiyədək gərəkən əlaqələr sistemi qurmağa nail olmayıb. Əks halda Bakı mənfur ermənilərin 1 nömrəli müttəfiqi olan Rusiya vətəndaşlarına viza rejimi tətbiq etmədiyi halda, türkiyəli qardaşlarımıza qarşı belə bir rejimi qüvvədə saxlamazdı.

Hədəflər qeyri-müəyyən olanda, xarici-daxili təhlükə və təhdidlər düzgün hesablanmayanda ayrı necə ola bilər ki. Azərbaycanın əsas dərdi bu gün ona düzgün diaqnoz qoyulmamasıdır. Diaqnoz səhvdirsə, “müalicə” də yanlış yöndə gedəcək və hətta daha ağır nəticələrə gətirəcək...

# Əli Kərimlinin əmisi oğlu Fransadan deportasiya oluna bilər - rəy

## İnqilab Kərimov nazir oğlunun başını kəsəcəyini bildirdi; mühacirin fikirləri rezonans doğurub

**AXCP sədri Əli Kərimlinin Fransada mühacirətdə yaşayan əmisi oğlu İnqilab Kərimov sosial şəbəkələrdə növbəti dəfə təhqir dolu “inqilab” yaradan yazı paylaşıb. O, Azərbaycan məmurlarının övladlarının başını kəsəcəyini, onları qətlə yetirəcəyini bildirib.**



İnqilab Kərimov

**Səidə Qocamanlı:** “Fransa hökuməti yəqin ki, onun bu fikirləri ilə tanış olub”
**Novella Cəfəroğlu:** “Kiminsə başını kəsmək kimi fikirlər söyləməklə təmsil olunduğu partiyanı da pis duruma salır”
**Arzu Abdullayeva:** “Onun bu çağırışı heç bir insaniyyətə sığışmır”

**O, hazırda Fransada siyasi mühacir həyatı yaşayan “Azadlıq” qəzetinin baş redaktoru və “Azərbaycan saatı” televiziya proqramının yaradıcısı Qənimət Zahidin paylaşdığı bu statusun altında hər kəsi heyrətə gətirəcək rəylər yazıb:** “Bu gün səhər tezdən aldığım bir xəbərdə belə iddia edildi: ”Avropada xüsusi fəallığı ilə seçilən azərbaycanlılara qarşı xüsusi “ləğvetmə” qərarı verilib. “Örtülü terror” ola bilər. Açıq şəkildə güllələmə, döyüb öldürmə deyil, sadəcə Litvinenko işində olduğu kimi. Başqaları ilə təmaslarına diqqət et, qonaqlıqları ixtisara sal, yaxından tanımadığın adamlarla harada gəldi yemək yemə, hətta çay belə içmə"! Mənə qəribə gəldi: axı, mənim Avropada heç bir fəallığım yoxdur və bu xəbərin mənə nə dəxli var? Fəallar ehtiyatlı olsunlar!".

**İ.Kərimovun bu statusun altında yazdığı rəyi təqdim edirik:** “Avropaya gəlməmişəm ki, yenə bu it qancıqlarının yemi olum... Avropaya gəlmişəm ki, yaşayıb qisasımı ala bilim... Odur ki, baş vermiş ilk hadisədə (tanınmış nazirlərdən birinin oğlunun adını yazır) ... kəsilmiş başı, əlimdə şəkil paylaşaram... Bilin ki, verdiyiniz bu qərar ilk növbədə süd çəlləyində bəslədiyiniz arvadvari balalarınızın başında çatlayacaq... Di haydı, buyurun, məndən başlayın şərəfsiz alçaqlar...”

Göründüyü kimi, partiya sədrinin Azərbaycandan qaçıb Fransaya sığınan əmisi oğlu artıq heç bir sərhəd tanımır. Onun bu cür fikirləri ilk dəfə deyil. Zaman-zaman İ.Kərimov Azərbaycanda tanınmış şəxslər barədə yazdıqları təhqirlərlə gündəmə gəlib. Bu insan sanki belə fikirlərlə gündəmə gəlmək yolunu seçib. Ötən ilin avqustunda da o, ölkəni heyrətə gətirəcək status paylaşmışdı. AXCP sədrinin əmisi oğlu İŞİD-ı Azərbaycana dəvət etmişdi. Kərimovun o vaxt paylaşdığı statusa bir də nəzər salaq: “İŞİD heç də hər adamın başını kəsmir. İŞİD 5 manata sifarişlə məhkəmə zalını dolduranların başını kəsir. İŞİD adını dindar qoyub, cindarlıqla məşğul olanların başını kəsir. İŞİD adını müxalifət qoyub, nazirliklərə dal qapıdan girib, çıxanların başını kəsir. Və düşünürəm ki, düz də edir. Azərbaycana xoş gəlirsən İŞİD...”

AXCP-nin yaydığı açıqlamada İ.Kərimovun ironiya və zarafatla bu sözləri yazdığı qeyd olunurdu. Ona bundan sonra yazılarında diqqətli olması tövsiyə edilirdi.

**İ.Kərimovun skandal yaradacaq statusları təkcə bunlardan ibarət deyil. Onu daha bir statusunu təqdim edirik**: “Azərbaycan məmurlarına müraciət. Avropada yaşayan arvad sifətli övladlarınızı çəkin yanınıza. Əks halda buradan pasılka ilə morqa göndərəcəyik”.

***

İndiyə qədər Fransa hökuməti onun təhqir, hədə dolu fikirlərinə göz yumub. Son fikirlərindən sonra isə, Əli Kərimlinin əmisi oğlunun yaşadığı ölkədən deportasiya olunma ehtimalları bir daha gündəmə gəlib. Maraqlıdır, bu dəfə Fransa hökuməti nə edəcək? İşin maraqlı tərəfi odur ki, Ə.Kərimli və Q.Zahid başda olmaqla, cəbhəçilər İnqilab Kərimovun sayıqlamalarına nəinki göz yumurlar, hətta onun status və rəylərini bəyənən çoxlu sayda partiya fəalları var. Onun Q.Zahidin paylaşdığı statusa yazdığı rəyi 15 nəfər cəbhəçi “like” edib. “Like”lərin içərisində AXCP rəhbərliyinə daxil olan şəxslər də var. Bununla hakimiyyətə gəlməyə can atırsınız cənablar?

**Hüquq müdafiəçisi Səidə Qocamanlı** musavat.com-a açıqlamasında Fransa hökumətinin İnqilab Kərimovla bağlı mütləq qəti addımlar atacağını bildirdi: “Hansısa bir azərbaycanlı mühacirin Avropa məkanında insan haqlarının qorunmasını əsas vəzifələrindən biri sayan ölkədə özünü belə özbaşına aparmasından sadəcə təəssüf hissi keçirirəm. Onun statusunu mən də oxumuşam. Çox geniş rezonans doğurub. Bunu oxuyan hər kəsdə bu, nifrət, istehza, xoşagəlməz hisslər yaradıb. Düşünürəm ki, Fransa hökuməti bu şəxsə qarşı qəti addımlar atacaq. Çünki bu, ilk dəfə deyil. O, bir dəfə də bu tərzdə status yazmışdı. Onda yadımdadır ki, AXCP bunu bir zarafat kimi qəbul etmişdi. Hətta onu qınaq da etmişdilər. Amma görünür ki, bu şəxsə bunlar azdır. Öz qoçuluğunu indi də Avropa məkanında göstərmək istəyir. Ölkəmizin adına, Azərbaycan müxalifətinin və mənsub olduğu partiyanın adına xoşagəlməz imic yaradır. Əminəm ki, Fransa hökuməti onun statusu ilə tanış olub. Çünki dünya o qədər açıqdır ki, hər şey anındaca yayılır və oxunur. Təbii ki, Fransa buna göz yummayacaq. Hər hansı bir vətəndaş ölkəsini tərk edərək, hansısa bir ölkədə sığınacaq alırsa, düşdüyü ölkənin qanunvericiliyinə, abı-havasına əməl etməlidir. O cəmiyyətə daxil olmaq üçün özünü müsbət tərəfdən göstərməlidir. Amma hər hansı bir mühacir bu tipli yazılar yazırsa, buna göz yumula bilməz”.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** bildirdi ki, İnqilab Kərimov deportasiya da oluna bilər, məhkəməyə də verilə bilər: “Onun adını çəkdiyi nazir övladı kimi ölkəsini layiqincə xaricdə təmsil edən, Qarabağ adını göylərə qaldıran ikinci bir gənc görməmişəm. O, doğrudan da Azərbaycanı sevən bir gəncdir. Onların ixtiyarı var ki, həmin şəxsi deportasiya edərək, bura gətirsinlər. O, özünə yox, buradakı qohumlarına pislik edir. İnqilab Kərimov həbsdə olub, biz onu azad etdirmişik. Əgər qanuni dövlət istəyirlərsə, qanunla işləməlidirlər. Kiminsə başını kəsmək, öldürmək kimi fikirlər doğru deyil”.

Digər **hüquq müdafiəçisi Arzu Abdullayeva** da belə söhbətlərin yersiz olduğunu söylədi: “Belə hallar nə vətəndaşa, nə partiya fəalına, nə də mühacirə yaraşmır. Heç bir insaniyyətə sığışmır. Əgər özü hüquqi baxımdan əziyyət çəkirsə, təqib olunursa, hüquqi cəhətdən özünü müdafiə etməlidir. Onu incidən şəxslərlə də qanun dilində danışmalıdır. Belə etmirsə, cinayətkarlarla onun arasında heç bir fərq yoxdur. Belə status onun Fransada mühacir kimi qalmasına ciddi təhlükə törədir”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 5 (6326) 9 yanvar 2016

**Ölkədə dolların qiyməti sürətlə bahalaşır. Paralel olaraq bu proses ərzaq və digər əmtəə məhsullarının bahalaşmasına təkan verir, iş yerləri bağlanır və faktiki olaraq ölkədə ağır sosial durum yaranıb. Bir sıra ekspertlərin müşahidələrinə görə Azərbaycanda bəlkə də son 20 ildə indiki miqyasda sosial gərginlik, əhalinin narazılığı olmayıb, başqa hər hansı ölkədə bu cür vəziyyət yaransaydı o ölkənin müxalifəti bundan dərhal istifadə edərdi, mitinq keçirib xalıq meydana yığardı. Azərbaycan müxalifəti isə bu addıma getmir. Müxalifət nə üçün fürsətdən yararlanmağa cəhd etmir? Gündəmdə mitinq keçirmək varmı?**

# Müxalifətin mitinq keçirməməsinin səbəbi nədir?

## "Spontan etirazların olması daha çox gözləniləndir"

**Pənah Hüseyn:** "Azərbaycan müxalifəti fürsətçil deyil, eyni zamanda onun vəziyyəti də ürəkaçan sayılmır"



Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn bildirdi ki, Azərbaycan müxalifəti fürsətçil deyil, eyni zamanda müxalifətin vəziyyəti də ürəkaçan sayılmır: "Ölkənin inkişafının çox mühüm hissəsi olan, cəmiyyətin inkişaf əlamətinin tərkib hissəsi olan müxalifəti hakimiyyət uzun illərdir zəiflətmək, bir institut kimi sıradan çıxarmaq siyasəti aparıb. Nəticədə isə müxalifət əvvəlki gücünü itirib. Müxalifətin və ölkədə gedən siyasi proseslərin zəifləməsi əslində indiki problemlərin əsas səbəblərindən biridir. Hakimiyyətin bu gün yaşadığı problemlər özünün illər uzunu yürütdüyü xəttin bəhrələridir. Bu situasiyadan çıxmaq üçün sosial-iqtisadi tədbirlərdən çox siyasi islahatların zəruri olduğunu düşünürəm".

**P.Hüseynin sözlərinə görə, ölkədəki vəziyyəti xarakterizə edən əlamətlərdən biri artıq iqtidarın ölkəni əvvəlki şəkildə idarə edə bilməməsinin görünməsidir**: "Hələ bu iqtisadi və sosial idarəetmədə, maliyyə-bank sferasında özünü göstərir. Çox ciddi devalvasiyadan sonrakı proseslər, hər gün manatın ucuzlaşması, valyutadəyişmə məntəqələrinin normal işləməməsi və digər amillər ölkənin maliyyə-bank sektorunda xaosun hökm sürməsinin, hökumət tərəfindən vəziyyətə nəzarətin itirilməsinin təzahürüdür. Bu vəziyyətin sosial və siyasi nəticələrinin olması labüddür. Müxalifət içərisində hazırda geniş bir fikir yaranıb ki, hakimiyyətlə xalq üz-üzə qalır və prosesi axarına buraxmaq lazımdır. Bəziləri hesab edir ki, müxalifətin mitinq keçirməsi və bu kimi hərəkətləri hakimiyyətlə xalqın üz-üzə dayanması vəziyyətinin özünün məntiqi sonluğuna gəlib çatmasına mane ola bilər. Amma hər halda mən güman eləmirəm ki, belə bir vəziyyət uzun çəksin. Proses idarə olunmayan mərhələyə keçir. Milyonlarla insanın yaşam səviyyəsinin birdən-birə iki dəfə aşağı düşməsi göz qabağındadır. Üzən məzənnə elan olunsa da bu, heç də üzən məzənnə deyil. Üzən məzənnə olsaydı heç olmasa bir dəfə də manat 3-5 qəpik bahalaşaydı. Diqqət edirsinizsə, dekabrın 21-də 50 faiz devalvasiyadan keçən 17-18 gündə dolların daha 30 faiz bahalaşması baş verib. Hər gün bir qaz bahalaşma aparılıb. Əslində hər gün davam edən devalvasiyadan danışmaq daha düzgün olardı. Dekabrın 21-dən indiyədək demək olar ki, hər gün devalvasiya gedib. Hökumət xalqı aldadaraq bəyan edir ki, devalvasiya dayanıb. Hökumətin sosial reablitasiya tədbirləri, təhlükəli prosesi önləmək tədbirləri müşahidə edilmir. Yaranmış vəziyyətin müzakirəsi müxalifət içərisində gedir. Amma daha geniş çərçivədə getməsinə ehtiyac var. Hətta yaranmış vəziyyətlə bağlı dövlət başçısı ilə görüş tələbləri var".

**Yaxın dövr üçün müxalifətin mitinq keçirmək planının olub-olmadığına gəlincə, Pənah Hüseyn dedi ki, müxtəlif çevrələrdə bu istiqamətdə hazırlıqlar gedir. Lakin hələlik rəsmi qərar verilməyib:** "Belə söhbətlər gedir ki, etirazı kütləvi aksiyalar şəklində ifadə eləmək lazımdır. Mitinqlərin başlanması labüddür. Spontan etirazların olması daha çox gözləniləndir. Müxalifətin içindəki şəxslər də əvvəlki təcrübələri də nəzərə alaraq spontan etirazların başlanması və sonra onun mütəşəkkil siyasi qüvvələr tərəfindən yönləndirilməsini hazırda daha üstün sayırlar. Onu da deyim ki, bu cür proseslər heç də planlaşdırıldığı kimi olmur. Gözlənilməz müxtəlif siyasi, sosial hadisələr bu cür vəziyyətlərdə daha çox müşahidə edilir. Arzu olunan odur ki, ölkədə idarə olunmayan proseslər başlamasın".

❑ **Etibar SEYİDAĞA**

# "Əli Kərimli ölkəni də AXCP-nin gününə salar"

## AXCP sədrinin fikirləri gülüş doğurub; **Zahid Oruc:** "Azərbaycan insanı Əli Kərimliyə inanmadığını onun mitinq çağırışlarına gəlməməklə sübut etdi"

**AXCP sədri Əli Kərimli Meydan.TV-yə verdiyi geniş müsahibədə bildirib ki, ölkənin bütün problemlərini öz üzərinə götürməyə tam hazırdır. Partiya sədrinin bu fikirləri sosial şəbəkələrdə müzakirələrə səbəb olub.**




Zahid Oruc

AXCP sədrinin fikirlərini əksəriyyət gülüşlə qarşılayıb. Buna səbəb elektorat bazası olmayan bir rəhbərin bu qədər böyük iddia irəli sürməsidir. Dekabrın sonlarından başlayaraq ölkəni ağuşuna alan devalvasiya qarşısında susqun mövqe sərgiləyən, yalnız facebookda yazdığı 1-2 statusla kifayətlənən bir partiya sədri problemlərin məsuliyyətini necə öz üzərinə götürə bilər? Yaxud keçirdiyi mitinqlərə min nəfərdən artıq iştirakçı toplaya bilməyən bir lider 10 milyonluq xalqa necə rəhbərlik edə bilər? Bütün bu sualların fonunda AXCP sədrinin fikirləri rişxəndlə qarşılanıb.

**İqtidaryönlü deputat Zahid Oruc** "Yeni Müsavat"a açıqlamasında Əli Kərimlinin İlham Əliyevin dırnağı belə ola bilmədiyini söylədi: "Bir çoxları hesab edir ki, hazırkı dövrdə yeni iqtisadi mərhələyə keçid zamanında siyasi aktivlik üçün zəmin var. Bu fonda özlərini cəmiyyətə təqdim etmək, hansısa narazı insanların rəğbətini qazanmaq və hakimiyyətlə mübarizədə mühüm qüvvəyə çevrilmək istəyirlər. Xüsusilə, Qərb dairələri ilə Azərbaycan arasında yaranan vəziyyət, həmin dairələri xarici siyasət kontekstində hərəkət etməyə vadar edir. Daxildə rəğbət qazanmasalar da, ayrı-ayrı xarici dövlətlərlə əlaqələr qurub hakimiyyətlə siyasi mübarizədə üstünlük qazanacaqlarına ümid edirlər. Belə demək mümkündürsə, Ukrayna variantını yaratmaq istəyirlər. Kliçkodan Poroşenkoya qədər hakimiyyətin kimlərdən ibarət olacağı artıq müəyyənləşib. Belə variant uzun müddət müxalifətdə qarımış şəxslərin də qəlbinə hakim kəsilib. Əli Kərimli daşıdığı bütün keyfiyyətlərə görə, dağıdıcılığı, aqressiyası, xəyanətkarlıq keyfiyyətləri ilə istənilən halda ölkəni Xalq Cəbhəsi Partiyasının gününə salar. O ada 4-5 şəxs iddia edib. Xalq Cəbhəsinin hüquqi varisliyindən onun siyasi varisliyi üzərində də daim didişmələr gedib. O şəxslər nə vaxt orada siyasi sabitliyi bərqərar ediblər ki, onun fonunda ölkədə məsuliyyəti öz üzərlərinə götürsünlər, siyasi sabitlik yaratsınlar, beynəlxalq əlaqələr qursunlar? Əli Kərimli və onun çevrəsindəki məhdud adamlar İlham Əliyevin heç dırnağı da deyillər. Bu gerçəkdən belədir. İllər ərzində ölkədəki quruculuq tədbirlərini, keçilən yolu son devalvasiya fonunda qiymətləndirməklə üzərindən xətt çəkmək yolverilməzdir. Bu şəxslər düşünürlər ki, ölkənin valyuta ehtiyatının yüksəldiyi zamanlardır. Ən mühüm layihələrin gerçəkləşdiyi, iqtisadiyyatın inkişafı üçün şərait yaranan mühüm bir dövrdə kimsə prosesləri başqa bir şəxsə verəcək? Onlar bunu ağıllarına gətirməsinlər".

**Z.Oruc hakimiyyət iddiasında olan şəxsləri normal qarşıladıqlarını da qeyd etdi**: "Hakimiyyət iddiasını heç kim süngü ilə qarşılamır. Lakin bunu o qüvvə göstərməlidir ki, cəmiyyətdə böyük ehtirama, hörmətə malik olsunlar. Eyni zamanda qəlblərində talibançılıq təfəkkürü daşımasınlar. Real ideyalarla Azərbaycanın gələcəyini vəd etsinlər. İnsanlar da düşünsünlər ki, bunlar bolşevik deyillər. Böhran zamanında onların fəallaşmaq siyasətləri ilk hadisə deyil. İndiyə qədər dəfələrlə buna bənzər halların şahidi olmuşuq. Sizləri əmin edirəm, 2016-cı ildə dövlət başçısının elə mühüm tədbirləri reallaşacaq, hər kəs bir daha görəcək ki, ölkəni həlledici anlarda durumdan çıxaran lider yenə İlham Əliyevdir. Buna heç kəs şübhə etməsin. Ötən dövr ərzində bunlar dəfələrlə sübuta yetirilib. Çin iqtisadiyyatından tutmuş, ABŞ-ın bu gün ki fond birjalarına qədər müxtəlif problemlər yaşansa, Azərbaycan da bu cür problemlərdən sığortalanmayıb. Bu dövr ərzində qeyd etdiyimiz inkişaf tədbirləri ilə yanaşı hökumətin fəaliyyətində müəyyən qədər nöqsanlar da var. Biz çağırışlar etmişik ki, yeni dövrün tələbləri ilə ayaqlaşa bilməyən insanlar vəzifələri ilə vidalaşmalı olacaqlar. Lakin bu, heç bir halda hakimiyyət dəyişikliyi anlamına gələ bilməz. Çünki ölkə bütövlükdə Xalq Cəbhəsinin gününə qalardı. Azərbaycan insanı Əli Kərimliyə inanmadığını onun mitinq çağırışlarına gəlməməklə sübut etdi. Əks halda ora bir milyon insan yığışsaydı, böyük qüvvə demək olardı. O zaman düşünərdik ki, ölkənin taleyi "Məhsul" stadionunda müəyyən edilir, Administrasiya binalarında yox. Amma göründüyü kimlər bunlar yoxdur. Qeyd etdiyiniz qəhrəmanların belə şəraitdə aktuallaşması virtual qəhrəmanlıqdır. Bunun real alt qatı yoxdur".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 5 (6326) 9 yanvar 2016

# Dünənki kimi olmasın



Zamin HACI
zaminhaci@gmail.com

**Bir lətifə var, son günlər tez-tez yadıma düşür. Dovşan avtobusa minir, görür oturmağa yer yoxdur, deyir: "Tez mənə yer verin, yoxsa dünənki kimi olacaq". Heyvanlar qorxu və təəccüblə bir-birinə baxır, canavar isə durub dovşanın qulağının dibinə bir yumruq ilişdirir, deyir: "Hə, indi de görək dünən nə olmuşdu". Dovşan zərbədən yerə uzanmış halda birtəhər başını qaldırıb mızıldanır: "Elə dünən də təxminən bu cür olmuşdu".**

Söhbət ondadır ki, neft gəlirlərinin azalması ilə karton evcik kimi darmadağın olmuş Azərbaycan iqtisadiyyatının təzədən dirçəlməsini yenə neft amilinə bağlayanlar var. Hələ də bəzi vətəndaşlarımız, o cümlədən iqtidar nümayəndələri ümid edirlər bəlkə neft təzədən bahalaşacaq, dollarlar gələcək, biz də yeyib-yatacağıq. Halbuki bu böhran normal cəmiyyətlər, ağlı başında olan hakimiyyət nümayəndələri üçün bir fürsət, bir toparlanmaq, dəyişiklik etmək şansı ola bilərdi. Şəxsən mən indiki devalvasiya və inflyasiyaya xəstə iqtisadi və siyasi sistemimizin bir qızdırması, neft və diktatura mikroblarına qarşı reaksiyası sayıram. Biz yetərincə güclü cəmiyyətik, kadrlarımız, potensialımız var, bu krizisdən uğurla çıxa bilərik. Dünya xalqlarının tarixi göstərir ki, bu, sağalmaz xəstəlik deyil.

Yoxsa "dünənki kimi olsun" bizə nə verəcək? Lap hesab edək fantastika oldu, təzədən neftin bir bareli 110 dollara qalxdı. Azərbaycan hakimiyyəti bundan necə yararlanacaq? Yenə tragikomik idman yarışları, hasarlar, korrupsiya, siyasi repressiya, saxta seçkilər və sairə olasıdır. Yenə neft dollarları Leyla Yunus, Xədicə İsmayıl kimi qadınları həbsxanalara doldurmağa sərf ediləcək. Yenə öz ölkəmizdə, öz yurdumuzda hər cür rəzalətdən utana-utana yaşayasıyıq. Sizə bu lazımdırmı?

Burda bir haşiyə çıxım. Kimlərsə bizi yersiz optimizmdə qınaya bilər, haqlı da görünər. Ancaq ilk baxışdan belədir. Hətta hazırkı dünyada qlobal böhranlar da bəşər tarixinə nəzər salanda elə faciəvi deyil. Örnək üçün, 21-ci əsrin ilk 15 ilində müxtəlif münaqişə və savaşlarda 1 milyona yaxın insanın həlak olduğu hesablanıb. 20-ci əsrin ilk 15-16 ilində isə birinci dünya savaşındakı itkilər daxil, dünyada 22 milyona yaxın insan münaqişələrdə həlak olmuşdu. Sinik görünmək istəməzdim, mənim üçün heç bir insanın qətli statistika deyil, ancaq hər halda miqyası özünüz üçün müqayisə edə bilərsiniz. Bəşəriyyət bütün hallarda qabağa gedib. Bir döyüşdə 250 min əsgərin həlak olduğu dönəmləri düşünün.

Cəmiyyətdə yaşadığı rejimdən narazılıq hallarının artması, dünənə kimi susanların, hətta yaltaqlıq edənlərin danışması müsbət haldır. 90-cı illərin sonunda "Azərcell" şirkəti bazara yaxşı bir reklamla girmişdi. "İndi hamı danışacaq!", "Axı necə?", "Hüdudları aşacaqsınız!" kimi sloqanları-şüarları vardı. Dünənə qədər yapizmin konsert-şoularında mikrofona növbəyə duran manıslar belə dil açıblar! Biri deyir daha pulsuz oxumayacağıq, başqası nə az, nə çox: xalqı meydanlara çıxmağa səsləyir! Elə bil Janna d Ark-dır. Ya da Ejen Delakrua-nın məşhur tablosundakı əli bayraqlı qadın - zövqə baxır, kimə hansı sərfəlidirsə, elə görsün.

Lazımsız idarə və nazirliklərin ləğvi, monopoliyaya son qoymaq çağırışlarının iqtidar tərəfindən səsləndirilməsi də müsbət dəyişiklik anonsu sayıla bilər, çünki dünənə qədər bu problemləri onlar nəinki etiraf edirdilər, hətta bunu deyənləri döyür, öldürür, tuturdular. Prinsipcə, monopoliya yenə ləğv edilməyib, ancaq onun varlığının etirafı önəmli etapdır. Çünki biz indiyə qədər guya olmayan bir şeylə mübarizə aparırdıq. Bu isə heç bir oyun qaydalarına uyğun gəlmirdi. Elə bil sən stadiona futbol oynamağa girib bir dəstə quduz taekvondoçunun təpiyi altında qalırdın.

**Uzun sözün qısası, mən hazırda neftin dünya bazarında ümumiyyətlə müftə olmasını arzu edirəm.**

# Azərbaycan bankrot vəziyyətinə çatıbmı?

## **Vüqar Bayramov:** "Məqsədəuyğundur ki, Azərbaycan limit çərçivəsində borclanmaya getsin"

**Azərbaycan bankrot vəziyyətə çatıb. Bu proqnozu Dünya Bankının ötən gün açıqladığı "Qlobal iqtisadi perspektivlər-2016" adlı hesabatında yer alıb. Dünya ölkələrinin iqtisadiyyatlarının inkişaf və tənəzzül göstəricilərinin açıqlandığı hesabatda Azərbaycan iqtisadiyyatı "bankrot vəziyyət" kimi qiymətləndirilib.**

Bunun səbəbi kimi qeyd edilib ki, dekabr ayının 21-də növbəti devalvasiyadan sonra dövlət qurumlarının xarici borcları daha da artıb. Məlumat üçün deyək ki, ümumilikdə dövlət qurumlarının xarici borcları 7 milyard dollar civarındadır. Devalvasiyadan sonra bu borclar da adekvat olaraq artıq və xarici borcun ümumdaxili məhsuldakı payı iki dəfəyə qədər çoxalıb.

**"Yeni Müsavat"a açıqlamasında Dünya Bankının Azərbaycanla bağlı dəyərləndirməsinə münasibət Vüqar Bayramov da bildirdi ki, manatın dəyərdən düşməsi iqtisadiyyatı böhran vəziyyətinə gətirib:** "Azərbaycan iqtisadiyyatı manatın devalvasiyasından sonra əvvəlki inkişaf tempini itirməyə başayıb. Nəzərə alsaq ki, neftin denya bazarındakı qiyməti aşağı düşdükdən sonra ölkəyə daxil olan vəsaitlərin həcmi 3 dəfə azalıb, neftin qiyməti yüksək olan dövrdə Azərbaycan ixracatının 95 faizini neft və neft məhsulları təşkil edirdi. O baxımdan neftin kəskin ucuzlaşması Azərbaycan ixracatının dəyər ifadəsinin də kəskin şəkildə aşağı düşməsinə səbəb oldu. Çünki qeyri-neft ixracatı çox az idi və ümumi ixracatın 5 faizini təşkil edirdi. Bu da ölkəyə daxil olan valyutanın həcminin azalmasına səbəb oldu və nəticə etibarilə manatın devalvasiyası baş verdi. Çünki, ölkəyə daxil olan valyutanın həcmi azaldığı üçün, valyutaya olan tələb yüksəldiyi üçün bu manatın məzənnəsinin qoruyub saxlanılmasını mümkünsüz etdi".

**İqtisadçı-ekspert vurğuladı ki, Azərbaycan ÜDM-i son bir ildə dollar ifadəsində iki dəfə azalıb:** "Əgər 2014-cü ilin yekunlarında Azərbaycan ÜDM-i dollar ifadəsində 75 milyard dollardan çox idisə, 2015-cü ilin yekunlarında Azərbaycan ÜDM-i dollar ifadəsində artıq 36 milyard dollara qədər azaldı. Nəzərə alsaq ki, Azərbaycanın xarici borcu dollarladır, lakin ÜDM-in həcmi manatla formalaşır, manatın məzənnəsi aşağı düşdükcə, xarici borcun ümumdaxili məhsuldakı payı artır. Baxmayaraq ki, Maliyyə Nazirliyinin məlumatına görə, xarici borcun ümumdaxili məhsuldakı payı elə də böyük deyil. 2015-cilin noyabr ayına olan məlumata görə, xarici borcun 6,7 milyard dollar olub. Neftin dünya bazarında qiymətinin yüksək olduğu dövrdə əgər xarici borcun ÜDM-dəki payı, 8 faizdən aşağı idisə, hazırda bu rəqəm 20 faizə qədər yüksəlib.

Borc məbləğində kəskin artım olmasa da, manatın devalvasiyası xarici borcun artmasına səbəb olub. 2015-cil ilin iqtisadi yekunları təəssüf ki, ürəkaçan olmadı. İqtisadiyyatın dollarla ifadəsində müəyyən geriləmələr oldu. Demirəm ki, bu vəziyyətdən çıxış yolu yoxdur. Təbii ki, çıxış yolu var. Digər ölkələrin təcrübəsinə nəzər salsaq Azərbaycan kimi neftdən asılı olan ölkələrdə belə problemlər yaşanır. Bu problemlərin həll ilə bağlı xüsusi reseptlər var".

**Ekspert onu da vurğuladı ki, beynəlxalq qurum tərəfindən verilən bu açıqlama Azərbaycanın kredit reytinqinə də mənfi təsir göstərəcək:** "Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun borc limiti ilə bağlı qaydalarını nəzərə alsaq, Azərbaycanın xarici borca getmək imkanları var, təxminən 10 milyard dollar borclanması mümkündür. Təbii ki, 80-100 milyard dollarlıq fantastik rəqəmlər borclanma üçün söylənə bilməz. O baxımdan daha məqsədəuyğundur ki, Azərbaycan limit çərçivəsində borclanmaya getsin. Bu borclanma ilə yanaşı hökumət genişmiqyaslı islahatlara başlamalıdır. Bütün süni əngəlləri, monopoliya, qeyri-rəsmi ödənişlər tamamilə aradan qaldırılmalıdır. Sosial islahatlar və kadr islahatları aparılmalıdır.

Təkcə Dünya Bankının bu proqnozu deyil, həmçinin Azərbaycan iqtisadiyyatının ümumilikdə geriləməsi Azərbaycanın kredit reytinqinə də təsir göstərəcək. Azərbaycanın kredit reytinqinin aşağı düşəcəyi gözlənilir. Həm Azərbaycanın, həm də şirkətlərin kredit reytinqində azalmalar olacaq. Nəzərə alsaq ki, xaricdən kredit alan əsas sektorlardan biri də bank sektorudur, o zaman bankların da kredit reytinqinin kəskin şəkildə aşağı düşməsinə gətirib çıxaracaq.

Azərbaycanın ticarət tərəfdaşları isə əsasən neft sektoru ilə əməkdaşlıq edir. Makroiqtisadi göstəricilərin pisləşməsi Azərbaycanın daha aşağı faizlə, daha yüngül şərtlərlə kredit almaq imkanlarını məhdudlaşdıracaq. Çünki, ölkənin kredit reytinqinin aşağı düşməsi onun ucuz kredit mənbələrinə çıxışını məhdudlaşdırır. O baxımdan Azərbaycanın iki il öncə daha aşağı faizlə kreditlər cəlb etmək imanı



var idisə, Azərbaycan şirkətləri rahatlıqla öz istiqrazlarını Avropa bazarında yerləşdirə bilirdilərsə, kredit reytinqindəki gözlənilən azalmalar bunun tətbiq edilməsini mümkünsüz edəcək".

**Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov** isə Azərbaycan iqtisadiyyatında problemlərin mövcud olmasına baxmayaraq Dünya Bankının proqnozu ilə razılaşmadığını bildirdi: "Dünya Bankı və Beynəlxalq Valyuta Fondu belə proqnozlar verirlər. Düzdür, bizim problemlərimiz var. Manatın ucuzlaşması ilə əlaqədar xarici borcun da həcmi artıb. Ancaq çıxış yolları da var. Biz də Azərbaycan hökumətinin Mərkəzi Bankla bir yerdə atacağı addımları gözləyirik. Yaxın zamanlarda bunlar açıqlanmalıdır. Bundan sonra müəyyən söz demək olar.

Dünya Bankının proqnozu ilə razılaşmıram, hələ ki, bu haqda danışmaq tezdir. Lakin problemlərin həlli üçün çevik hökumət olmalıdır, bu hökumət gecə-gündüz işləməlidir, idxal-ixrac məhsulları ilə bağlı analizlər aparmalıdırlar. Problem çoxdur. İxrac yönümlü məhsulların istehsalına nail ola bilməsək vəziyyət çox pis olacaq. Digər tərəfdən ixracda liberallaşma və şəffalığı təmin etmək lazımdır. Bunun üçün bir addım atıldı, gömrük sadələşdi, mən bu addımların davam etdirilməsinin tərəfdarıyam. Bütün bu problemlərin həlli üçün çevik hökumətə ehtiyac var".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 5 (6326) 9 yanvar 2016

**ABŞ prezidenti Barak Obamanın Azərbaycan prezidenti İlham Əliyevi aprel ayında Vaşinqtonda keçiriləcək 4-cü Nüvə Təhlükəsizliyi Sammitinə dəvət etməsi iqtidara yaxın dairələrdə sevinclə qarşılanıb. Müxalifət düşərgəsinin bu hadisəni necə dəyərləndirilməsini araşdırdıq.**

# İqtidar düşərgəsi Obamanın dəvətinə sevinir, bəs müxalifət?

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, Barak Obamanın dəvəti həm protokol dəvətidir, həm də Azərbaycan hakimiyyətinə bir münasibət göstəricisidir: "Bundan böyük ajiotaj və bayram düzəltməyin də mənası yoxdur. Çünki görüşlər heç də həmişə ürəkaçan formada olmaya da bilir. Xüsusilə bu dəvət Konqresin Helsinki Komissiyasının qəbul etdiyi məlum qanun layihəsindən əvvəl olub. Məhz bundan sonra Azərbaycan hökumətinə sanksiyaları nəzərdə tutan qanun layihəsi ortaya çıxıb, həmçinin "Maqnitksi qanunu"nun tətbiq olunması ilə bağlı iddialar səslənir. Hər halda hesab edirəm Obamanın dəvətinin müsbət pozitiv tərəfi o ola bilər ki, prezident ABŞ-a səfəri öncəsi bəzi müsbət addımlar ata bilər. Xüsusilə siyasi məhbus məsələsində addımlar atıla bilər. Mən çox istərdim ki, Azərbaycanla ABŞ-ın münasibətləri çox sıx olsun. Çünki biz zatən üzümüzü Qərbə çevirmişiksə, Qərb dəyərlərinin hakim olmasını istəyiriksə, Azərbaycanın təcrid olunması müsbət heç nə vermir. Ona görə də çox istərdim ki, təkcə Nüvə Sammiti çərçivəsində yox, bütün dönəmlərdə münasibətlər isti olsun".

**AXP sədri Pənah Hüseyn** isə dedi ki, Nüvə sammiti kimi tədbirlərə bir qayda olaraq çoxlu sayda dövlətlər dəvət olunur. 2010-cu ildə Gürcüstan və Ermənistanın prezidentləri dəvət olunmuşdu, Azərbaycan prezidenti isə dəvət olunmamışdı. Bu da istər-istəməz izahatı olmayan bir məsələ kimi dəyərləndirilirdi. O baxımdan çoxlu sayda dövlətlərin başçılarının iştirak etdiyi beynəlxalq tədbirdə iştirak məsələsini xüsusi olaraq hansısa jest kimi dəyərləndirmək doğru deyil. Dəvət ətrafında ajiotaj həm başadüşüləndir, həm də bir qədər qeyri-ciddi görünür. İndiki situasiyada bu dəvət pozitiv hadisədir. Əgər dəvət olmasaydı, bunu mənfi jest kimi dəyərləndirmək olardı".

**VİP sədri Əli Əliyev** isə bildirdi ki, ABŞ siyasi isteblişmenti mövcud iqtidara və xüsusən prezident Əliyevə daima dəstək nümayiş etdirib. Bu dəstək xüsusən 2013-cü ildə açıq şəkildə təzahür etdi: "Həm səfir Morninqstarın görüşləri, həm də ABŞ-dan gələn, tərkibində 100-ə qədər senator və konqresmen olan nümayəndə heyəti, seçkilər ətrafında təzyiqini gizlətməyən Putinə ciddi pərsəng effektli cavab idi. Lakin seçkidən sonrakı dönəmdə Azərbaycan tərəfi bir sıra məsələlərdə, geopolitik mənada bu dəstəyin qarşılığını nümayiş etdirmədi.

ABŞ-da son 2 həftədə baş verənlər diqqət çəkəndir. Bizdə hay-küyə səbəb olmuş Kristofer Smit qanun layihəsindən daha təhlükəli hadisələr ictimai fikirdən gizlədilir. Azərbaycana qarşı daha ciddi, bir sıra rəsmi şəxslər üçün məhdudiyyətləri və məhrumiyyətləri ehtiva edən, yəhudi icmasının aparıcı fiqurlarından biri senator Ben-camin Karsonun müzakirəyə təqdim etdiyi "Qlobal Maqnitski" şərti adlı qanun layihəsidir. Bu qanun layihəsi Azərbaycan vətəndaşından gizlədilir və qeyd edim ki, Smitin layihəsindən qat-qat təhlükəli manea potensialı vardır. Cənab Karsonu heç kəs ermənipərəstlikdə ittiham edə bilməz və onun ortaya çıxardığı qanun layihəsi həmişə bizim iqtidara, onun timsalında əsas problemlərimizə dəstək verən yəhudi lobbisinin mövqeyi kimi qiymətləndirilməlidir. Qayıdaq dəvət məsələsinə. Fikrimcə, hakimiyyət 2 həftə ərzində Amerika əleyhinə sadəlöhvcəsinə hazırlanmış kampaniyanın ictimai şüurda yaratdığı mənasız inikası fərq edərək, "Amerika ilə münasibətlərimiz yaxşıdır" təəssüratını formalaşdırmaq üçün məlumatı dövriyyəyə buraxmaq qərarı verib. Bu hadisənin özü göstərir ki, ən sıravi vətəndaşımız belə ABŞ-ın dünyada hansı gücə sahib olmasını bilir və ucuz qanun layihələri ilə aldanmayacağını nümayiş etdirir. Hakimiyyət isə ertələnmiş tarixlə dəvəti şəxsi səviyyədə ictimailəşdirməklə bu gücü etiraf etmiş oldu. İqtidar anlamamış deyil ki, hələ devalvasiyanı tənzimləmək mümkündür, lakin ABŞ-ın qəzəbini ram etmək mümkün olmaya bilər. ABŞ isə hələlik bu hakimiyyətdən əsaslı güzəştlər tələb etmir. Azərbaycanşünas sayılan Kramer və Kozlariç vasitəsilə siyasi məhbusların azad edilməsini istəyən dünya liderinin sözlərini eşitməmək nə bu iqtidara, nə də Azərbaycana heç bir fayda verməz. İstərdim ki, hakimiyyət daxilindəki Rusiya meylli qüvvələrə güc gələrək, prezident Əliyev müdriklik nümayiş etdirib, bizə dövlət olaraq, manea olacaq qanunların qəbulunun qarşısını ala bilsin".



**Pənah Hüseyn:** "Əgər dəvət olmasaydı, bunu mənfi jest kimi dəyərləndirmək olardı"



**İqbal Ağazadə:** "Çox istərdim ki, Azərbaycanla ABŞ-ın münasibətləri çox sıx olsun"



**Əli Əliyev:** "Dünya liderinin sözlərini eşitməmək nə bu iqtidara, nə də Azərbaycana heç bir fayda verməz"

❑ **Etibar SEYİDAĞA**

# Rusiya Türkiyənin yanına qayıtmağa yol arayır - maraqlı gəlişmə

## Bölgədəki yeni situasiya Moskvanı Ankaraya qarşı siyasətə yenidən baxmaq zorunda qoyub; "Türk axını" layihəsi qayıda bilər, əgər...; Kreml daşları yığmağa başlayır?

**Yeni 2016-cı il sözsüz ki, korlanmış Türkiyə-Rusiya münasibətlərindəki gəlişmələrlə diqqət çəkəcək. Bu gəlişmələr isə xeyli dərəcədə iki dövlətin Yaxın Şərq regionunda, Suriyada toqquşan maraqlarının inkişaf dinamikasından qaynaqlanacaq. Doğrudur, bir sıra analitiklər, o cümlədən ABŞ-ın nüfuzlu "Stratfor" şirkətinin təhlilçiləri iki güc arasında ziddiyyətlərin dərinləşəcəyini mümkün sayıblar, amma dərinləşən ziddiyyətlər praqmatik qərarlara vəsilə də ola bilər.**

Belə görünür, Rusiya isteblişmentində də vəziyyətin inkişaf ssenarilərini soyuq başla təhlil edib nəticə çıxaranlar yox deyil. Bu qənaəti Türkiyəyə münasibətdə son zamanlar şimaldan eşidilən nikbin və kövrək bəyanatlar gücləndirir. Məsələn, təzə ilin başlanğıcında "Qazprom" rəhbəri Aleksey Miller belə bir açıqlama ilə çıxış edib ki, "siyasi fikir ayrılıqları Rusiya və Türkiyənin enerji sahəsindəki layihələrinə təsir etməyəcək".

Miller tərəflər arasında imzalanan sazişlər çərçivəsində işləməyə davam edəcəklərini söyləyib, eyni zamanda ilin sonunadək Rusiya-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının bir araya gələcəyinə ümid etdiyini vurğulayaraq, "Türk axını" layihəsinin xüsusi əhəmiyyətə malik olacağını da qeyd edib.

***

Millerin Putinin ən yaxın ətrafına daxil olan ən nüfuzlu oliqarx-simalardan biri olduğu ciddiyə alınarsa, onun açıqlamasını rəsmi Moskvanın Ankaraya münasibətində yumşaq ritorikaya keçmə istəyinin təzahürü kimi də qəbil eləmək olar.

Əlbəttə ki, heç şey səbəbsiz deyil. İş ondadır ki, beynəlxalq çaplı iqtisadçı-ekspertlər, lap elə rusiyalı müstəqil iqtisadçılar, o sırada keçmiş maliyyə naziri Aleksey Kudrin bu il Rusiya iqtisadiyyatında böhranın pik həddə çatacağı, rublun daha da dəyərsizləşəcəyi haqda bəd proqnozlar veriblər. Bu da öz növbəsində potensial sosial partlayış təhlükəsi deməkdir.



Kreml başçısı Putin üçün belə qorxulu vəziyyətdən iki çıxış yolu mümkündür: 1. Neoimperiya siyasətinə davam edib ölkəni böyük müharibələrə sürükləmək. 2.Ağır iqtisadi-maliyyə embarqoların götürülməsi üçün avantürist xarici siyasət kursundan əl çəkib nə qədər gec deyil, geri addım atmaq.

Birinci yol Putin komandası da daxil, Rusiyanı daha böyük fəlakətlərə soxa, imperiyanın çöküşünü sürətləndirə bilər. Qalır ikinci - praqmatik yol. Bundan ötrü isə öncə Türkiyə ilə qırılmış münasibətləri bərpa eləmək gərəkir.

***

Türkiyənin Rusiya üçün önəmi yeni İran-Səudiyyə Ərəbistanı qarşıdurması fonunda daha da artmış kimi görünür. Məsələ ondadır ki, bu konflikt İranla yanaşı, şimal qonşumuzun ərəb-islam dünyasında təklənməsinə aparıb çıxara bilər. Çünki Yaxın Şərq (Suriya, İŞİD, Bəşər Əsəd) məsələlərində Moskva ilə Tehran çoxdandır eyni - anti-Qərb, anti-Türkiyə siyasəti yürüdür, ərəb dövlətlərinin mütləq əksəriyyətinin maraqları əleyhinə siyasi-hərbi müttəfiqlik edirlər.

Hazırda İranın ərəb dünyasında izolə edilməsi prosesi gedir. Analoji münasibət Rusiyaya qarşı mövcuddur və Kreml də sübhə yox ki, bunun fərqindədir. Təsadüfi deyil ki, rəsmi Moskva Səudiyyə-İran qarşıdurmasında açıq şəkildə ikincinin tərəfini tutmaqdan imtina edib və balanslı mövqe tutmağa çalışdı.

Bundan əlavə, ər-Riyadın islam koalisiyası (əslində vahid islam ordusu) yaradılması ilə bağlı irəli sürdüyü təşəbbüs də yenə məhz Tehran və Moskvanın regional proseslərə müdaxilə imkanlarını sıfırlamaq niyyəti güdür. Koalisiyada nüvə dövləti Pakistanla regional supergüc Türkiyənin təmsilçiliyi öz-özlüyündə çox şeyi deyir...

Bu və digər sərt reallıqlar, o cümlədən İran kimi təklənmək və bölgədə arzuolunmaz dövlətə çevrilmək təhlükəsi, habelə digər regional güc İsrailin Türkiyəyə yaxınlaşması və islam koalisiyasına virtual dəstəyi Rusiyanı Türkiyəyə münasibətdə yenidən baxmaq, ən azından Türkiyəyə münasibətdə aqressiv siyasətə düzəlişlər eləmək və ənənəvi sərt ritorikanı yumşalmaq zorunda qoyur.

***

Təbii ki, Moskva ilə münasibətlərin yaxşılaşması Türkiyəyə də gərəkdir. Söhbət təkcə qarşılıqlı iqtisadi-ticari mənfəətlərdən, o cümlədən energetik sahədə, turizm sektorunda, insani münasibətlər sferasında situasiyanı təcili qaydaya salmaq zərurətindən getmir. Həm də ondan gedir ki, iki ölkə arasında əlaqələrin zəruri səviyyədə olması qardaş ölkənin Qərb qarşısında manevr imkanlarını artırar, onun xarici siyasət kursuna əlavə çeviklik və dinamiklik gətirərdi. Paralel surətdə Güney Qafqaz regionunda Rusiyadan ötrü amilinin əhəmiyyəti kiçilmiş olar, bölgədə yeni müharibə riskləri azalar, Dağlıq Qarabağ məsələsinin həlli prosesi pozitiv impulslar qazanardı.

Söz yox ki, tərəflər arasında əlaqələrin səviyyəsi tezliklə "Su-24" insidentindən əvvəl mövcud olmuş vəziyyətə qayıtmayacaq. Ancaq diplomatik münasibətlərin qalması, səfirlərin geri çağırılmaması, Türkiyəyə qaz təchizatının dayanmaması və 2016-cı il üçün Rusiya ilə bağlı səslənən kritik iqtisadi proqnozlar söyləməyə əsas verir ki, hər halda "atdığı daşları" Kremlin yığmağa başlayacağı gün uzaqda deyil.

**İstənilən variantda güman eləməyə əsaslar güclüdür ki, Moskva Ankara ilə əlaqələri bundan da çox pisləşdirməyə getməyəcək. Demək, onun Türkiyədən "Su-24" olayına görə hansısa hərbi xarakterli revanş almaq planlarının önəmi də getdikcə azalır ki, artmır. Sonuncu qənaətin xeyrinə işləyən mühüm faktorlardan biri də Moskvanın "Türk axını" layihəsinə yeni nəfəs vermək istəyidir ki, "Qazprom" rəhbəri bunu dilə gətirib.**

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 5 (6328) 9 yanvar 2016

# Deputatdan ilginc Amerika-Azərbaycan müqayisəsi

## Əli Məsimli: “ABŞ dolların həddən artıq bahalaşmasının, Azərbaycan isə manatn həddən artıq ucuzlaşmasının qarşını almağa çalışır”

**“Azərbaycan iqtisadiyyatının Amerikadakı təcrübədən yararlanması bir qədər mücərrəd məsələdir. Əgər fərdi təcrübədən söhbət gedirsə, indi internet əsridir və öz üzərində işləyən istənilən mütəxəssis Amerika təcrübəsini yetərincə bilir. Yox, əgər ümumiyyətə, Amerika təcrübəsindən söhbət gedirsə, burda məsələ xeyli düşündürücü və həm də bizə tətbiq baxımından qəliz məsələdir”.**

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Əli Məsimli** Azərbaycanın düşdüyü böhranlı durumdan çıxış yollarını şərh edərkən bunları söyləyib. Qeyd edək ki, bir sıra ekspertlər inkişaf etmiş ölkələrin, o cümlədən ABŞ-ın təcrübəsindən yararlanmaqla kritik vəziyyətdən çıxmağı zəruri sayır. Uzun aylardır ABŞ-da işləyən iqtisadçı alim Qubad İbadoğlu da Amerikada həyat səviyyəsinin yüksək olduğunu, Azərbaycanda ən gəlirsiz sahələr hesab olunan sahələrdə çalışan peşə sahiblərinin yüksək məvaciblər aldıqlarını, bütün kateqoriyalı insanların normal yaşayış imkanlarına malik olduğunu deyib. Bu mənada Azərbaycanda da müəyyən addımların atılması mümkün hesab edilir. Hətta hökumətə təqdim olunan antiböhran tədbirlərində bu detalların da əksini tapdığı iddiası var. Lakin Ə.Məsimli hesab edir ki, məsələyə daha real prizmadan yanaşmaq lazımdır: “Bu, real deyil. Əvvəla, ona görə ki, ABŞ və Azərbaycan hər ikisi bazar iqtisadiyyatı ölkəsi adlandırılsa da, fərqli inkişaf modelləri əsasında gedən və inkişafın müqayisə olunmaz dərəcədə müxtəlif mərhələlərində olan ölkələrdir. Amerika təcrübəsi liberal bazar iqtisadiyyatı modelinin klassik nümunəsidir. Amerika həm də postindustrial cəmiyyətin super nümunəsidir. Azərbaycan isə konstitusiyasında sosial yönümlü bazar iqtisadiyyatı qurmağı hədəfləsə də, hələlik postsovet məkanının əksər ölkələrində olduğu kimi, sosializmdən kapitalizmə keçidin nomenklatura kapitalizminə daha çox uyğun gələn mərhələsindədir. Hazırda ölkəmizdə bunun sındırılması və səmərəli fəaliyyət göstərən bazar modelinin formalaşdırılması istiqamətində islahatlara başlanılıb”.


Əli Məsimli

Deputatın fikrincə, digər bir məqam isə bundan ibarətdir ki, hazırda Amerika sürətlə inkişaf edir deyə, milli valyutası - dollar möhkəmlənir: “İqtisadiyyatı neftdən asılı ölkələrin əksəriyyətində olduğu kimi, Azərbaycanda da çox mürəkkəb durum yaranıb və milli valyuta - manat dollara nisbətdə dəyərsizləşir. Ona görə də indiki mərhələdə ABŞ və Azərbaycan tamamilə fərqli problemlərin həlli ilə məşğuldur. ABŞ dolların həddən artıq bahalaşmasının, Azərbaycan isə manatın həddən artıq ucuzlaşmasının qarşını almağa çalışır. Bu baxımdan hazırda biz daha çox neftin qiymətinin aşağı düşməsi nəticəsində iqtisadiyyatı böhranlı vəziyyətinə düşmüş ölkələrin təcrübəsinin həm səhvlərlə dolu mənfi tərəflərinə diqqət etməklə onların buraxdıqları səhvləri təkrar etməsək, həm də müsbət cəhətlərini tənqidi təhlil edib nəticə çıxarsaq, işimizə daha çox yarayar”.

**Bəs, biz istəsək amerikan modelinə keçə bilərikmi?**

**Ə.Məsimli:** “Amerikan modeli sürətli iqtisadi tərəqqiyə aparan çox unikal modeldir. İqtisadi və sosial həyatın qarşılıqlı əlaqəsinin amerikan modeli, bir tərəfdən, yüksək əmək məhsuldarlığına, səmərəliliyə, digər tərəfdən isə kütləvi surətlə şəxsi uğura nail olmaq əsasında qurulub. Orada əhalinin daha aktiv hissəsinin varlanması üçün maksimum şərait yaradılıb. Aztəminatlı qruplara isə güzəşt və müavinətlər hesabına məqbul həyat səviyyəsi təmin edilir. Bu model insan təbiətinin əsas məqamlarının incəliklərini özündə əxz etdirə bildiyindəm çox maraqlı modeldir. Həyatda mümkünsüz şey yoxdur. Kim bilir, bəlkə də nə vaxtsa bu modelə müraciət etmək aktuallıq kəsb edəcək. Amma indiyə qədər bu modelə keçmək istəyənlərin nəticələrindən çıxış edərək demək olar ki, indi istəsək belə bu modelə keçə bilmərik”. Ekspert deyir ki, bunun səbəbi çoxdur: “Təhsilin səviyyəsi, elmi, texniki tərəqqinin praktikaya tətbiq dərəcəsi ilə bağlı, hüquqi, iqtisadi, sistem xarakterli səbəblərlə bağlı və sair. Əsas səbəb isə budur ki, Amerikan modeli daha çox məhz amerikan təbiətli insan amili üzərində qurulub. Azərbaycanda isə obrazlı şəkildə ifadə etsək, o modeli gerçəkləşdirməkdən ötrü yetərli sayda amerikan yoxdur. Ona görə də biz öz təcrübəmizi obyektiv təhlil edib çatışmazlıqları aradan qaldırmaq müsbət tərəflərini isə inkişaf etdirməklə, eləcə də qabaqcıl dünya təcrübəsindən yaradıcılıqla yararlanaraq öz inkişaf modelimizi optimallaşdırmaqla böhranı daha tez səngidə və daha yüksək nəticələrə nail ola bilərik”.

❑ **Cavid TURAN**

# Türkiyənin Azərbaycana qarşı viza tətbiqi yalan çıxdı, amma...

## Ekspert: “Heç kim gələcəkdə tətbiq olunması planlaşdırılan bu qaydalara görə Türkiyəni günahladıra bilməz”

**“Mətbuatda dərc edilən və Türkiyənin Azərbaycan Respublikasının vətəndaşlarına qarşı məcburi viza rejimi tətbiq edəcəyi ilə bağlı xəbərlər həqiqəti əks etdirmir”. Yuxarıdakı fikirləri Türkiyənin Azərbaycandakı səfirliyindən “Yeni Müsavat”ın sorğusuna cavab olaraq bildirilib. Xatırladaq ki, Türkiyə mətbuatı Avropa İttifaqı (Aİ) ilə ötən ilin sonlarında imzalanan sənəddə viz ilə bağlı şərtin Ankara qarşısında qoyulmasına diqqət çəkib. Sözügedən viza sadələşdirilməsi və readmissiya sazişinə istinad edən media bildirib ki, saziş çərçivəsində 2016-cı ilin iyun ayından etibarən Ankara Aİ üzvü olmayan 89 ölkəyə, o cümlədən Azərbaycana viza rejimi tətbiq edəcək.**

Qeyd edək ki, Türkiyə Azərbaycanla viza rejimini birtərəfli qaydada ləğv etsə də, illərdir Bakı hələlik öz tərəfindən anoloji addım atmayıb. Bu yaxınlarda isə məlum oldu ki, Gürcüstan və Ukrayna üzərinə götürdükləri öhdəlikləri yerinə yetirdiyi üçün Avropa Birliyi bu ölkə ilə viza rejimini sadələşdirməyi planlaşdırır. Avropa Komissiyası da bu ölkələrdə həyata keçirilən müvafiq prosedurların beynəlxalq standartlara cavab verdiyi qənaətində olduğunu bəyan edib. Belə olan təqdirdə Azərbaycana qarşı hətta qardaş Türkiyənin də vizalı rejimi bərpa etməsi bir sıra digər problemlərlə yanaşı, psixoloji gərginliklər yarada bilər.

Ancaq Türkiyənin Bakıdakı səfirliyindən birmənalı şəkildə bildirildi ki, Türkiyə ilə Azərbaycan arasında hazırda tətbiq edilən viza rejimində hər hansı dəyişiklik nəzərdə tutulmur. “Azərbaycan Respublikasının vətəndaşları, 2007-ci ildən bu günədək tətbiq edildiyi kimi, Türkiyəyə turistik məqsədlə həyata keçirəcəkləri 30 günlük səyahətlərdə viza almaq zərurətindən azad olacaqlar”-səfirliyin mətbuat xidmətinin rəsmi cavabında bildirilir.

Yeri gəlmişkən, bəzi media orqanları Türkiyə XİN-ə istinadən Azərbaycana qarşı daha yumşaq formada vizalı rejiminin tətbiq olunacağını xəbər verib. Səfirliyin açıqlaması isə bu iddiaların əsassız olduğunu ortaya çıxarır. Yeri gəlmişkən, son vaxtlar Türkiyə-Azərbaycan münasibətlərini pozmaq istəyən meyllər artmaqdadır. İlin ilk günlərində Türkiyədə Xocalı soyqırımı abidəsinin üzərindən soyqırım ifadəsinin çıxarıldığı barədə illər öncə yazılmış xəbər “yenilik” kimi sosial şəbəkələrdə təqdim olundu. Ardınca da viza söhbətinin şişirdilməsi istiqamətində iş gedir. Ancaq elə G-20 Sammitinə fəxri qonaq kimi Türkiyənin məhz Azərbaycan prezidentini dəvət etməsi iki ölkə arasındakı münasibətlərin ən yüksək səviyyədə inkişafından xəbər verir. Təbii ki, ayrı-ayrı qüvvələr bu münasibətlərə xələl gətirmək üçün istənilən bəhanədən istifadə etməyə çalışır. Türkiyənin bu tezliklə Avropa Birliyinə üzv olması sual altındadır. Hələ ilin ikinci yarısına qədər çox dəyişiklikləri ola bilər. Digər tərəfdən, Türkiyə vizalı rejimin bərpası istiqamətində addım atarsa, özü də turizm ölkəsi kimi bundan ciddi maliyyə itkisinə məruz qala bilər. Doğrudur, Avropa Birliyi Ankaranın qarşısında viza öhdəliyini də qoyub. Amma diplomatik qaynaqlardan əldə etdiyimiz məlumata görə, yəqin ki, Türkiyə burada müəyyən redaktələr edəcək.


Elxan Şahinoğlu

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** “Yeni Müsavat”a bildirdi ki, Türkiyə Xarici İşlər Nazirliyi Azərbaycana viza tətbiqi ilə bağlı xəbərləri təkzib etməsinə baxmayaraq, gələcəkdə nələrin baş verəcəyini söyləmək çətindir: “Çünki Avropa Birliyi Türkiyəyə 2016-cı ildə viza tətbiqinin ortadan qaldırılmasını vəd edib. Bu isə o deməkdir ki, Türkiyə vətəndaşları rahat şəkildə Avropa Birliyi ölkələrinə səfər edəcəklər. Başqa sözlə, bu, gələcəkdə Türkiyənin Şengen ölkələri sırasına daxil olması deməkdir. Şengen vizasının isə öz şərtləri var. Azərbaycan vətəndaşı Şengen vizasını almadan təyyarı bileti alıb İtaliyaya və ya Fransaya səfər edə bilərmi? Təbii ki, yox. Bunun üçün səfər edəcəyin ölkənin səfirliyinə müvafiq sənədlər təqdim etməlisən. Eləcə də Türkiyə Şengenə daxil olarsa, Brüssel Ankaradan ümumi qaydalara riayət etməyə çağıracaq”. E.Şahinoğlu qeyd etdi ki, heç kim gələcəkdə tətbiq olunması planlaşdırılan bu qaydalara görə Türkiyəni günahladıra bilməz: “Biz özümüzü günahlandırmalıyıq ki, niyə biz elə bir vəziyyətə gəlib çıxdıq ki, qardaş dövlətə səfər etmək üçün yenidən səfirliyin quruğunda dayanacağıq. Azərbaycan vaxtında Ümumdünya Ticarət Təşkilatına üzv olsaydı, Avropa Birliyi ilə assosiativ saziş imzalasaydı və bunun ardınca Ukrayna və Gürcüstan kimi Brüsselə vizasız gediş-gəliş imkanına malik olsaydı, strateji müttəfiqimiz Türkiyənin Azərbaycan vətəndaşlarına yenidən viza tətbiqinə ehtiyac qalmazdı”.

**Politoloq hesab edir ki, yenə də gec deyil. Yəni Azərbaycanın indiki ağır iqtisadi və sosial durumunda Avropa Birliyi və Ümumdünya Ticarət Təşkilatı ilə danışıqları intensivləşdirmək lazımdır:** “Onların irəli sürdüyü şərtlər bizim özümüz üçün lazımdır ki, həyatımızın müxtəlif sahələrini inkişaf etdirək, monopoliyalardan qurtulaq, rəqabət qabiliyyətli iqtisadiyyat quraq, qanunvericiliyimizi ümumi standartlara yaxınlaşdıraq. Bunları etsək, həm neqativ yükdən azad olacağıq, həm də Avropa Birliyinin qapıları Türkiyə, Gürcüstan və Ukraynanın üzünə açıldığı kimi Azərbaycanın da üzünə açılacaq və viza almaq üçün səfirliklərin qapılarında alçaldıcı şəkildə günlərlə növbəyə dayanmağa ehtiyac qalmayacaq”.

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 5 (6326) 9 yanvar 2016








# Pozor, Praqa!

## Əməkdaşımız Çexiyanın paytaxtında gördüklərindən yazır





## Andersonun nağıllarını xatırladan şəhərdən 2 günlük qeydlər

**Macəra Praqa aeroportundan etibarən başlayır. Hələ şəhərin heç nəyinə bələd deyiləm. Adını eşidib, "üzünü" görmədiyim paytaxt barədə sadəcə heyranlıqla danışan bir neçə nəfərin təssüratları yadımdadır. Sakit, xaosdan uzaq aeroportdan şəhərin düz mərkəzində yerləşən otelimə getmək üçünsə qrafik və uyğun nəqliyyat vasitəsi seçmək zorundayam. Qarşımda iki variant var: taksi, avtobus...**

Praqadakı jurnalist dostlarla yazışıram. Hansı daha uyğundur? Cavab gecikmir: "taksi təxminən 200 krona, yəni 8 manata səni şəhərin mərkəzinə aparacaq. Taksiyə minmək istəsən, mütləq şirkət taksisinə min. Üzərində AAA seriyası, 257257257E kimi nömrələr yazılan taksiyə. Heç nə yazılmayan taksi adamı aldadır. Amma sən istəsən, avtobusla şəhərin mərkəzinə gəlib, daha sonra ordan taksi ilə otelə gedə bilərsən. Praqanın mərkəzinə gəlmək üçünsə avtobusun axırıncı dayanacağında düşəndən sonra metroya minməlisən".

Bir jurnalistə nə lazımdır? Macəra! Aeroportdan taksiyə minib otelə gəlmək elit turistin işidir. Bizə isə gəlmişkən Praqanın ictimai nəqliyyatını da tanımaq lazımdır. Həmkarların məsləhəti ilə aeroportdakı valyutadəyişmə məntəqəsində cəmi 20 avro dəyişirəm. Öyrənirəm ki, aeroportdakı valyutadəyişmə məntəqələrində faiz yüksəkdir. Onun əvəzində şəhərdəki ərəblərin valyutadəyişmə məntəqəsində daha ucuz faizlə avro-dolları milli pul vahidi olan krona dəyişmək sərf eləyir. Dostlar məsləhət görür ki, 100 dolları 2400 krondan ucuz dəyişmək ağıllılıq əlaməti deyil, çünki şəhərdə bunun məbləği 2700 krona bərabərdir.

### Praqa nəqliyyatı - dəqiqliyi ilə heyran edir...

Budur, aeroportun düz çıxışındakı dayanacağa yollanıram. Məbləği 24 kron olan, yarım saatlıq avtobus bileti alıram (burda biletlər məsafəyə görə yox, saata görədir), yaxınlıqdakı sarı qutuda qeydiyyatdan keçirir, 119 saylı avtobusa minirəm. Avtobusun saat neçədə, hansı dəqiqədə dayanacaqda olacağı isə tabloda qeyd olunub və hər şey saniyəsinə qədər dəqiqliklə çalışır. Direktivə uyğun olaraq, sonuncu dayanacaqda - Nadraji valeslabin stansiyasında düşürəm. Burda bir haşiyə çıxım ki, Praqa avtobuslarının bizdəkindən fərqli cəhəti - burda hər dayanacağa çatanda içəridəki monitorda stansiyanın adı öz əksini tapmasıdır. Çexlər hər dayanacağa bir ad veriblər və hətta şəhərə ilk dəfə gələn nabələd turistin belə burda azma şansı yoxdur.

Sonuncu dayanacaq və qarşımda metro. Metroya bilet almaq isə deyəsən müşkül məsələdir. Məndə xırda pul yoxdur, aparat iri kronu qəbul etmir. İngilisdilli bir çexin yardımı ilə metro bileti əldə edib, lazımi stansiyada düşürəm. Amma bir məqamı da deyim, burda biletsiz də metroya minmək mümkündür. Çexiya hökuməti də digər Avropa ölkələrindəki ictimai nəqliyyatda olduğu kimi, bunu sərnişinlərin vicdanına buraxıb. Hər dəqiqə bilet nəzarətçiləri sərnişinin başının üstünü kəsdirməyə bilər. İşdi, şayət kəsdirsələr və sizin biletsiz olduğunuz üzə çıxsa, 50 avro cərimə də ödəmək zorundasız.

Yol macərasına davam. Metro məni şəhərin mərkəzinə çatdırır və bundan sonra mənzil başına taksi ilə çatmaq mümkün. Taksi məsrəfini ikiqat azaltmanın xoşbəxtliyi içində yoldan keçən və üzərində AAA seriyası, dövlət nişanı olan bir taksi saxladıb, otelə doğru yol alıram.

Praqada rahat səyahət etmək üçün rus dilini bilmək kömək edir. Budur, taksi sürücüsü də rus dilində, ləhcə ilə olsa da, rahat danışır. Əlində iri çemodanlı bir turistin aeportdan uzaq bir məkanda nə etməsi marağına səbəb olur, trayektoriyamı anladıram, xeyli gülür, cavabı isə eynən bu cürdür: "Deyəsən, siz qarşınıza məqsəd qoymusuz ki, Praqanın bütün nəqliyyat vasitələri ilə tanış olacaqsız".

### Andersonun nağıllarını xatırladan şəhər - çirkin ördək balası hardadır?

Taksiçinin də dediyi kimi, eynən, məqsədə çatmış hesab olunuram. Və budur, Praqanın mərkəzi. İlk təəssüratım isə belədir: bura Andersonun nağıllarını xatırladır. Az qala qulaqbatırıcı bir sakitlik, səssizlik. Bir sözlə, şəhərdən huzur yağır. Evlər, küçələr, döngələr, mağazalar beləE insanı nağıllar aləminə aparır. Elə bilirsən, bu dəqiqə hansısa tindən Qrim qardaşları, ya da nənəsinə sovqat aparan Qırmızı Papaq qarşına çıxacaq və yaxud çirkin ördən balası səni qırağa çəkib, şikayətlənəcək.



Çexlər öz paytaxtlarında qədimiliyi qoruyub saxlayıblar. Doğrudur, Praqa kiçik şəhərdir, hətta onu başdan-ayağa qədər gəzmək üçün 2-3 gün belə kifayət edir. Əlinə xəritəni alıb, yolunu azmadan, heç yeri qarışdırmadan rahat səyahət edə bilərsən. Azca ingilis dili, üstəgəl rus dilini də bilirsənsə, kefinə söz ola bilməz. Böyük şəhərlərdən fərqli olaraq, burda xaotiklik, yorucu energetika yoxdur. Adama elə gəlir ki, bizim el məsəli ilə desək, çexlərin Araz aşığından, Kür topuğundandır. O qədər rahat yəni... Karl körpüsünə çıxıb, ordan yolu əlinə alaraq Praqa şəhər kitabxanasına, Kafkanın ev muzeyinə də getmək olar. Kafkanın kafesi, heykəlini görmək istəyənlər üçün də bu, çətin deyil. Kiçik şəhərdə bu məkanları "əlinlə qoymuş" kimi tapa bilirsən.



### Bir tərəfdə Kafkanın muzeyi, mərkəzdə isə ağ rəngli "əsrarəngiz limuzin"

Yuxarıda da yazdım, Karl körpüsü Praqanın ən görməli yerlərindən biridir. Onunla paralel Prajskie kurantı - saatlı bina da şəhərin simvollarından biridir. Maraqlıdır ki, bu saat maraqlı bir tamaşanın obyektidir. Hər saatın tamamında orta əsr kukla teatrı ənənələrindən ibarət kiçik tamaşa göstərilir. Ona görə də Praqa turlarında turistlər mütləq hansısa saatın əvvəlini bu məkanda olmağa çalışırlar. Çünki fiqurların bir-birini əvəzləməsinin sonunda xoruz banlayır və saat çalır. Praqalılar hər saatın gəlişini şölənə, şouya, şadyanalığa çevirməyi başarırlar.

Bəs bu nədir? Şəhərin mərkəzi küçələrində ağ rəngli limuzin və üzərində qadın fotoları. Öyrənirik ki, bu maşınlar gecə klubları və barların reklamını həyata keçirir. Az qala hər addımbaşı turistlərə "sexy sauna", "sexy girls" deyə təklif edirlər. Adına "cabaret" deyilən bu məkana heç də hər turist "yox" deyə bilmir.

### Praqa turların vətəni, ucuz və sərfəli...

Turistlər üçün Praqanı cazibədar edən bir məqam burda qiymətlərin ucuzluğudursa, digər məqam da təşkil olunan şəhər içi və şəhər xarici turlardır. Məsələn, əgər siz Mistik Praqa adlanan tura qatılmaq istəyirsizsə, 20 avronuzdan keçməlisiz. Sizi Praqada skelet bələdçi müşayiət edəcək. Bəli, bələdçi skelet kostyumundadır. Onunla birgə şəhərin ən əsrarəngiz, qaranlıq və tarixi yerlərinə ekskursiya etmək mümkündür. Ekskursiya boyunca turisti əsrarəngiz və bir qədər qorxu yaradan səs də müşayiət edir. Bu da insanlarda adrenalini artırmağa xidmət edir.

Bundan başqa, Praqa boyunca, gəmi səyahəti də var ki, onun məbləği 25 avrodur və 3.5 saat davam edir. "Pivə Praqası" adlanan turlar zamanı isə turistləri həqiqi çex pivəsinin istehsal olunduğu məkanlara aparırlar və bu tur 40 avro dəyərindədir. 3.5 saat davam edən bu gəzinti turistlərin ən çox tərcih etdiklərindədir.

Yuxarıda da yazdığımız kimi, Praqanın daha bir üstünlüyü Avropanın bir çox ölkələrinə yaxınlığıdır. Hətta praqalılar ucuz bazarlıq üçün həftədə bir dəfə Berlinə getməyi də bu səbəbdən seçirlər. Praqaya gəlib, Avropanın bəzi şəhərlərinə turist səfəri etmək üçün seçimlər var. Budapeşt turu 140 avro, (2 gün davam edir), Paris turu 120 avro, İsveçrə turu 230 avro (3 günlük), Vyana turu (2 günlük) 120 avro, Berlin turu 60 avrodur(2 günlük).

### Danışır Azadlıq Radiosu? Danışmır, ən azı bizə...

Praqaya gəlib, həmkarlara baş çəkməmək olmaz. Biz də səfərdən istifadə edib, Azadlıq Radiosunun Praqadakı baş ofisində olmaq istədik. Amma məlum oldu ki, bunun üçün Bakı ofisinin rəhbərliyindən rəsmi icazə almaq lazımdır. Radionun Azərbaycan bölməsinə rəhbərlik edən şəxsə - İlkin Məmmədova məktub yazıb, reportaj istəyimi bildirirəm. Cavab isə eynən bu cürdür: "AzadliqRadiosuna diqqətiniz üçün təşəkkürlər. Son bir ildə radioya qarşı hücumlar və bir mərkəzdən idarə olunan təxribatları nəzərə alaraq Azadlıq Radiosunun Praqa ofisində reportaj təklifinizi müsbət cavablanacağı inandırıcı gəlmir. Ancaq suallarınızı cavablamaq üçün müsahibə və ya yazılı müsahibədən heç vaxt qaçmırıq. Suallarınızı göndərin və vaxtı razılaşdırıb, suallarınızı məmnuniyyətlə cavablayarıq".

Bu da həmkar cavabı. Əlavə şərhə ehtiyac duymadan, bu bölümü də qapayırıq.

### Səfər Əbiyevi "gördüm" deyən olmadı...

Praqaya gələn bir jurnalist bütün gözəl yerləri gəzəndən sonra kimi görmək istəyə bilər? Praqanı özünə məskən tutan azərbaycanlı məmurları. Demokratik düşərgənin Çexiyanı niyə sevmədiyini bilirsizmi? Bu ölkənin dövlət orqanlarında rüşvətə meyllilik var. Çirkli pulların yuyulması, kazinolar, qumarxanalar və saysız-hesabsız azərbaycanlı məmurların daşınmaz əmlakı... Çexiya sanki Azərbaycanın rüşvətxor məmurları üçün ikinci ana vətəndir.

Məmur demiş, uzun müddət Azərbaycan mediasında eks müdafiə naziri Səfər Əbiyevin Praqada yaşaması, gizlənməsi barədə məlumatlar gedirdi. Amma bu şəhərdə yaşayan həmvətənlərimiz bildirdilər ki, bu, şayiədən başqa bir şey deyildi. Çünki şayiənin çıxdığı gündən indiyə qədər bir dəfə də olsun sabiq naziri Praqada görməyiblər. Hətta biz də əlimizdə fotoaparatla hazır vəziyyətdə bir neçə günlük gəzintidə onu yaddaşa köçürmək istəsək də, cənab Əbiyev "üzə çıxmadı".

Yazının əvvəlində də qeyd etdiyimiz kimi, rus dilini bilən üçün Praqada rahat hərəkət etmək mümkündür. Amma bəzi incə nüansları diqqətdən qaçırmadan. Məsələn, ruslarda ayıb mənasını verən "pozor" sözü çexlərdə "diqqət" anlamına gəlir. Ətir isə "vonyuçka". Əgər nəyinsə yaxşı olduğunu anlatmaq istəyirsizsə, "ujasna" deməniz yeterlidir. Burda yaşayan azərbaycanlıların danışdığı ən populyar lətifə isə budur: "Dostlar Bakıdan zəng edən kimi soruşurlar ki, orda "çeşka" var? Varsa neçəyədir? Biz də deyirik ki, vallah, hansı tərəfə baxsan, "çeşka"dır, pula da ehtiyac yoxdur, salam verən kimi səninlə dost olurlar. Axı burda çex qızlarına "çeşka" deyirlər".

**Praqa barədə bu qədər... Çexiya yazıları isə davam edəcək. Növbəti yazıda sizi turizmin ürəyinin döyündüyü məkana - Karlovı Varaya "aparacağıq". Ordakı məmur villaları, səyahət qiymətləri və daha nələr, nələr... Bizi izləyin.**

**❑ Sevinc TELMANQIZI**
**Praqa, Çexiya**

YENİ MÜSAVAT
N 5 (6326) 9 yanvar 2016



# Azərbaycanda orta təbəqə itə bilər

## İqtisadçı-ekspert: "Devalvasiyanın ən böyük zərbəsi orta təbəqədə özünə yer tutmuş insanlara dəyib"

**Devalvasiya daha çox orta təbəqəyə ciddi zərbə endirib və bu təbəqənin sıradan çıxmasına səbəb ola bilər. Bütün ölkələrdə orta təbəqə deyilən bir sinif mövcuddur. Bu təbəqə dövlətin bel sütunu sayılır və ölkələrdəki sabitlik, inkişaf da məhz bu təbəqənin sayəsində mümkün olur.**

Son dövrlərdə Azərbaycanda da müəyyən qədər orta təbəqə yaranmışdı. Ancaq baş verən iki devalvasiya hazırda bu təbəqəni məhvə doğru aparır. Ümumiyyətlə, orta təbəqə yaşayışının dəyəri orta standartlardan, gəlirləri isə orta aylıq əmək haqqından yüksək olan təbəqədir. O adam orta təbəqənin nümayəndəsi hesab edilə bilər ki, o, ildə bir dəfə müntəzəm olaraq 5-10 min manat xərcləyərək ailəsi ilə birlikdə xarici ölkələrin birində istirahət edə bilsin. Bundan başqa, yaxşı mənzili, maşını olsun. Ancaq bu kriteriyaların əksər insanlarda olmaması Azərbaycanda orta təbəqənin sayının az olmasını deməyə əsas verir. Az sayda olan orta təbəqənin nümayəndələri təəssüf ki, devalvasiya və bahalaşmadan sonra tədricən yoxa çıxır. Azərbaycanda istər Dövlət Statistika Komitəsi, istərsə də iqtisadi tədqiqatlarla məşğul olan qruplar orta sinfin neçə faiz olması haqda konkret rəqəm deyə bilmirlər.

Dünya iqtisadçıları hələ 2013-cü ildə yaxın onilliyin ən mühüm risklərini açıqlayaraq orta təbəqənin itə biləcəyi proqnozunu vermişdilər. Minlərlə ekspertin fikrincə, varlılar ilə yoxsulların gəlirləri və həyat tərzi arasında fərq böyükdür və bu get-gedə böyüyür. Stabil orta səviyyədə yaşayan insanlar azalır. Məhsul və xidmətlərə tələbat azalır. Deməli iqtisadiyyatın inkişafı ləngiyir.

**İqtisadçı-ekspert Natiq Cəfərli** devalvasiyanın ən böyük zərbəsinin məhz orta təbəqəyə dəydiyini dedi: "Həm psixoloji, həm mənəvi, həm də iqtisadi zərbə yaranmış olan orta təbəqəyə dəyir. Çünki Azərbaycanda son neft bumundan sonra çox az da olsa, kövrək şəkildə də olsa orta təbəqə formalaşmağa başlayırdı. Dünyanın bütün ölkələrində əsil sabitliyin, əsil inkişafın məhz orta təbəqənin üzərində qurulması prinsipi var. Yəni indiki Azərbaycan hökumətinin anladığı qorxu üzərində qurulmuş sabitlikdən söhbət getmir. Söhbət iqtisadi və siyasi sabitlikdən gedir ki, bu bütün ölkələrdə məhz orta sinfin üzərində qurulub. Ən böyük vergi ödəyicisi sinfi də məhz orta təbəqə olub. Ölkənin inkişafında mühüm rol oynayan insanlarda orta sinfə aid olub. İndi isə iki devalvasiyanın ən böyük zərbəsi təbii ki, orta təbəqədə özünə yer tutmuş, illər ərzində çalışıb özünə ev, maşın almış, ildə heç olmasa bir dəfə Gürcüstanda və ya Türkiyədə istirahət etməyə öyrəşmiş insanların üzərinə düşdü. İndi bunun nəticəsində orta təbəqənin tamamilə sıradan çıxması ölkədəki ümumi siyasi vəziyyətə də ciddi təsir edəcək. Dünyada bütün ölkələrdə dəyişikliklərin avanqard qüvvəsi həmişə orta sinfin kasıblaşmasından sonra baş verir. Yəni orta sinif düşdüyü vəziyyətlə barışmır və bundan sonra müəyyən proseslər başlayır. Azərbaycanda təəssüf ki, buna doğru gedir. Orta təbəqənin məhv olması, sıradan çıxması ölkə üzrə həm iqtisadi aktivliyi azaldır, həm də daxili istehlakı ayaqda saxlayan, ticarət dövriyyəsini sıradan çıxardır. Çünki bunları ayaqda saxlayan orta təbəqənin insanları idi. Bunların sıradan çıxması bütün makroiqtisadi göstəricilərə, o cümlədən ticarət dövriyyəsinə ciddi təsir göstərəcək, həm də həmin insanların psixoloji durumu çox ağır olacaq".

**Kasıb əhalinin vəziyyətinin daha da ağır olacağını deyən iqtisadçı ekspert devalvasiyanın nəticələrinin tam olaraq hələ ki, iqtisadiyyatda özünü büruzə vermədiyini dedi:** "Köhnə məzənnə ilə gətirilmiş məhsullar bitdikdən sonra qiymətlər surətlə artmağa başlayacaq. Azərbaycanda olan orta aylıq əməkhaqqını, minimum əmək haqqını, yaşayış minimumunu, pensiyaların vəziyyətini gördükdə bilmək olur ki, o insanların vəziyyəti daha da ağır olacaq. Adicə dərmanlara və ərzaqlara aldıqları təqaüd və yaxud da ki, maaşı çatmayacaq. Bu sosial gərginliyin yaranması üçün çox böyük səbəb olacaq".

❑ **Günel MANAFLI**

# Ödənilməyən kreditlər - çıxış yolu nədir?

## Ekspertlər bildirirlər ki, Mərkəzi Bank bank nəzarəti tələblərini yumşaldır və bankların acınacaqlı vəziyyətini pərdələməyə çalışır, amma...

**Ölkədə ödənilməyən kreditlərin həcmi yenidən artan xətt üzrə inkişaf edir. Ekspertlər bildirirlər ki, bankların ehtiyatları yenə azalır və ikinci devalvasiyadan sonra bu, ciddi şəkildə davam edəcək. Nəticədə isə əmanətlər ciddi təhlükədədir. Əksər ekspertlər qeyd edirlər ki, Mərkəzi Bankın banklara növbəti güzəşti bank sisteminin ölümcül vəziyyətindən xəbər verir.**

Qeyd edək ki, yanvarın 6-da Mərkəzi Bankın "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydaları"na dəyişikliklər qüvvəyə minib. Dəyişikliklərə əsasən bundan sonra banklar verdiyi kreditlər üzrə daha az ehtiyat yaradacaq. **Ekspert Əkrəm Həsənov** məsələni şərh edərək bildirib ki, bundan sonra qeyri-qənaətbəxş kreditlər, yəni ödənişi 180 günədək gecikdirilən kreditlər üzrə 30 faiz əvəzinə 25 faiz, təhlükəli, 270 günədək gecikdirilən kreditlər üzrə 60 faiz əvəzinə 50 faiz ehtiyat yaradılacaq: "Məsələn, tutaq ki, bank cəmi 300 milyon manat kredit verib. Onun 100 milyon manatının qaytarılması 180 günədək, 100 milyon manatının qaytarılması isə 270 günədək borclular tərəfindən gecikdirilir. İndiyədək bank bu halda 90 milyon manat ehtiyat yaratmalı idi. Bundan sonra isə cəmi 75 milyon manat ehtiyat yaradacaq".

**Ekspertin sözlərinə görə, fevral devalvasiyasından sonra Mərkəzi Bank sözügedən qaydalara artıq üçüncü dəfədir dəyişiklik edir:** "Həmin dəyişikliklər də banklara kreditlər üzrə daha az ehtiyat yaratmaq imkanı yaratmışdı. Görünən odur ki, həmin tədbirlər kifayət etməyib və bankların problemli kreditlərinin həcmi o qədər artıb ki, onlar üçün kifayət qədər ehtiyat yaratmağa qadir deyillər. Başqa sözlə, kapitalları çatışmır, pulları yoxdur. Buna görə də Mərkəzi Bank bu dəyişikliyi məhz indi edib ki, bankların 2015-ci ilin nəticələri üzrə hesabatları əhalini, ilk növbədə əmanətçiləri qorxutmasın. Məsələ burasındadır ki, ehtiyatlar kapitalı azaldır. İndi isə banklar hesabatlarında ehtiyatlarını azaldaraq, kapitallarının nisbətən qənaətbəxş olduğunu nümayiş etməyə çalışacaqlar. Bir sözlə, Mərkəzi Bank bank nəzarəti tələblərini ona görə yumşaldır ki, bankların acınacaqlı vəziyyətini pərdələsin. Nəticədə əhaliyə yanlış məlumat ötürülür ki, guya hər şey normaldır. Bank müştəriləri, ilk növbədə əmanətçilər bundan nəticə çıxarmalıdır. Bu dəyişikliyi edən Mərkəzi Bank artıq xeyli müddətdir ki, bir neçə bank tərəfindən əhalinin əmanətlərinin qaytarılmamasına da göz yumur, həmin banklara nə kömək edir, nə də lisenziyasını geri alır. Bir sözlə, devalvasiyanın ikinci dalğasından sonra Mərkəzi Bank bankların çaldığı havanı oynayır və əhalini təhlükə altına qoyur. Mərkəzi Bankın bank nəzarəti funksiyası tədricən heçə enir, banklar başlı-başına buraxılır, bu isə ilk növbədə əmanətçilər üçün çox ciddi təhlükədir".

**Qeyd edək ki, ekspertlər dollar kreditlərinin çoxluğu səbəbindən bankların problemli kredit portfelinin artdığını vurğulayırlar. Həmçinin, bildirilir ki, dollar kreditləri ilə bağlı məsələ çözülməzsə, problem daha qabarıq şəkildə özünü göstərəcək. Əkrəm Həsənov deyir ki, borcu ödəmək həm hüquqi, həm də mənəvi cəhətdən vacibdir. Lakin qanuna zidd olaraq şişirdilmiş borc ödənilməməlidir. Eyni zamanda, borclunun imkanı yoxdursa, borc ödənilmir.** "Borca görə həbs və bu kimi digər cəza tətbiq edilə bilməz. Yalnız borcun ödənilməsi haqda məhkəmə qərarını qərəzli, üzrsüz səbəbdən icra etməyən həbs oluna bilər. Bu, Cinayət Məcəlləsinin 306-cı və İnzibati Xətalar Məcəlləsinin 313-1-ci maddələrindən irəli gəlir. Banklar, icra məmurları və onlara xidmət edən bəzi hüquqşünaslar vətəndaşları adətən bu maddələrlə qorxudur. Lakin bu maddələrdən yalnız o kəslər qorxmalıdır ki, pulu ola-ola borcu ödəmir. Yəni özünün və himayəsində olan şəxslərin yaşayış minimumunu təmin edən məbləğdən artıq rəsmi gəliri var, həmin gəlirdən hətta vergi də ödəyir, amma bankın pulunu vermir. Gəliri olmayan borcluya bu maddələr tətbiq edilə bilməz", - deyə ekspert vurğulayıb.

**Ekspertin sözlərinə görə, borclu yalnız əmlakı ilə məsuliyyət daşıyır. Yəni borca görə əmlakı əlindən alına bilər:** "Ancaq Bu zaman Nazirlər Kabinetinin 5 iyun 2002-ci il tarixli 89 saylı Qərarında sadalanmış əmlak, girovda deyilsə, bir ev, mebel, paltar, uşaq ləvazimatı və sair vətəndaşın əlindən alına bilməz. Borclunun aylıq gəlirinin maksimum 50 faizi məhkəmə qərarı ilə tutula bilər. Bu zaman borclunun və himayəsində olan şəxslərin yaşayış minimumu toxunulmazdır. Borclunun gəlirinin yalnız sözügedən yaşayış minimumundan artıq hissəsi tutula bilər. Bank borcu maaş və ya pensiya kartından silirsə, kart hesabının bağlanması haqda banka ərizə verə, sonra isə iş yerinə və ya Dövlət Sosial Müdafiə Fonduna müraciət edə bilərsiz ki, maaşı və ya pensiyanı sizə başqa yolla ödəsin. Bu halda bank kart hesabını bağlamağa, işəgötürən və ya Dövlət Sosial Müdafiə Fondu isə sizə pulunuzu başqa yolla ödəməyə borcludur. Çünki heç kəsi zorla hər hansı bankın müştərisi etmək olmaz".

**Ə.Həsənov qeyd edib ki, yazılı girov müqaviləsi əsasında girov qoyulmuş əmlak borcludan məhkəmə qərarı əsasında alınıb satıla bilər:** "Girov kimi daşınmaz əşya qoyulubsa, müqavilə notariat qaydasında təsdiq edilməli və Daşınmaz Əmlakın Dövlət Reyestrində qeydiyyata alınmalıdır. Buna görə də məsələn, təhvil verilməmiş binadakı mənzilin girovu mümkün deyil. Bu şərtlərə riayət edilməyibsə, girov mövcud deyil. Zaminlik müqaviləsi mütləq yazılı bağlanmalıdır. Yazılı müqavilə yoxdursa, kredit üzrə zamin də yoxdur. Qanuna əsasən, kredit üzrə faizlər ildə bir dəfə tutulmalıdır. Lakin bizim banklar ayda bir dəfə tutur və bununla da borcu şişirdir. Bankdan məhkəmədən əvvəl də, məhkəmə prosesi əsnasında da indiyədək etdiyiniz ödənişlərin yenidən hesablanmasını tələb edə bilərsiz. Bu halda əsas borcunuz azalacaq. Banklardan kredit üzrə faiz dərəcəsinin azaldılmasını tələb edə bilərsiz. Bu zaman Prezidentin 22 dekabr 2014-cü il tarixli Fərmanının 11-ci bəndinə istinad edə bilərsiz. Orada Prezident Mərkəzi Banka tapşırıb ki, faiz dərəcələrinin aşağı salınmasını təmin etsin. Bank bunu etməsə, Mərkəzi Banka müraciət edin ki, niyə prezidentin göstərişinin icrasını təmin etmir. Borcun ödənilməsini gecikdirdikdə, bilin ki, bank bir qayda olaraq, etdiyiniz ödənişdən ilk növbədə cərimə tutacaq. Amma bu, qanunsuzdur. Buna görə də cərimənin tutulmayacağı haqda bankdan yazılı iltizam almayınca, krediti ödəməyin. Əks halda, borcunuz şişəcək.



Bankların borclulara təzyiq aləti kimi onun iş yerinə, qohumlarına və digərlərinə müraciət etməsi qanun pozuntusudur".

Onun sözlərinə görə, həmçinin dollarda krediti olanlar Mülki Məcəllənin 422-ci maddəsinə istinad edərək şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar kredit müqaviləsinin dəyişdirilməsini, o cümlədən kreditin valyutasının manata çevrilməsini tələb edə bilər. Borcun ödənilməsi haqda məhkəmə əmri ilə bağlı borclu 10 gün ərzində həmin məhkəməyə yazılı etirazını bildirə bilər. Borclular məhkəmə prosesindən qorxmamalıdır. Əksinə, çox saylı və uzunmüddətli məhkəmə proseslərindən banklar qorxur.

**Ə.Həsənov qeyd edib ki, borclulara qarşı qanunsuz tədbirlərə qarşı birləşmək vacibdir:** "Borclular birləşərək qanun çərçivəsində müqavimət göstərməli, haqlarını tələb etməlidirlər. O cümlədən birgə şikayət etməlidirlər. Bu halda banklar əməli güzəştlərə getməli olacaq. Digər yol antikollektor qurumlarının yaradılmasıdır. Bir çox ölkədə belə şirkətlər var. Onlar çox cüzi mükafat müqabilində vətəndaşların borcu üzrə bütün hüquqi hərəkətlərin həyata keçirilməsini öz üzərinə götürür. Bankla danışıqlardan tutmuş məhkəmə proseslərinin aparılması və məhkəmə qərarlarının icrası zamanı borclunun təmsil edilməsinədək. Nəticədə borclu adi hüquqşünasa ödəyəcəyi ilə müqayisədə çox cüzi vəsait xərcləməklə öz hüquqlarını qoruyur, antikollektor qurumu isə bu işlə ixtisaslaşmış və küttləvi şəkildə məşğul olduğu üçün zərərsiz fəaliyyət göstərə bilir. Bu təcrübənin öyrənilməsinə və Azərbaycanda da tətbiqinə ehtiyac var".

❑ **RÖYA**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 5 (6326) 9 yanvar 2016

# Ermənistanın "mədən-sənaye dövləti" olmaq arzusu gözündə qaldı

## Azərbaycanlı alim işğalçı ölkənin Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü Təşkilatının İdarə Heyətinə üzv olmasına imkan verməyib

**Azərbaycan ərazilərini 25 ildən artıqdır işğal altında saxlayan Ermənistan ölkəmizə yüz milyardlarla dollar ziyan vurub. İşğal altında olan ərazilərin yeraltı və yerüstü təbii ehtiyatlarla zəngin olması isə təcavüzkar ölkəni son illərin böhranlı vəziyyətlərində xilas edir. Ermənistan özü də həyasızcasına etiraf edir ki, işğal altındakı ərazilərdə onlarla xarici şirkətlər çalışır və bölgəyə yatırım qoyur.**

**Azərbaycan Respublikasının ermənilər tərəfindən işğal olunmuş rayonlarında yerləşən faydalı qazıntı yataqlarının siyahısı**

**Kəlbəcər**

| Faydalı qazıntının növü | Faydalı qazıntı yatağının adı | Ehtiyatlar | |
|---|---|---|---|
| | | Sənaye proqnoz | |
| Qızıl | 1.zod (söyüdlü)<br>2.ağduzdağ<br>3. tutxum | 112,5 vahid<br>-<br>- | 5 vahid<br>8 vahid |
| Civə | 1.Ağyataq<br>2.Levçay<br>3.şorbulaq<br>4. ağqaya | 190 t.<br>503 t.(sürmə- 1000 t)<br>30 t.<br>- | 150 t. |
| Mişar daşı | 1.kilsəli | 10927 min m3 | |
| Gil | 1.keşdək | 1312 "-" | |
| Perlit | 1.keçəldağ | 4473 "-" | |
| Qum-çınqıl | 1. çəlli | 2540 "-" | |
| Tikinti daşları | 2. yataq | | 12,34 mln m3 |
| Üzlük daşları | 3. yataq | | 2,2 mln m3 |
| Əlvan daşlar: | | | |
| - obsidian | 1. yataq | | 2337 t. |
| - oniks | 4. yataq | | 1756 t. |
| - pefritoid | 2. yataq | | 801 t. |
| - listvenit | 1. Yataq | | 1067 m3 |
| Mineral sular | Yuxarı istisu<br>Aşağı istisu<br>Keşdək<br>Tutxun-qarasu<br>Tutxun<br>Mozçay | 825 m3/ gün<br>640 "-"<br>108"-"<br>700 "-"<br>600 "-"<br>150 "-" | |

**Ağdərə**

| Faydalı qazıntının növü | Faydalı qazıntı yatağının adı | Ehtiyatlar | |
|---|---|---|---|
| | | Sənaye proqnoz | |
| qızıl | 1.Qızılbulaq | 13,6 vahid<br>(mis-47,9 m.t.) | |
| Qurğuşun | 1 .Mehmana | 37,3 m.t. | |
| Sink | | 40,4 m.t. | |
| Mis | 1. Dəmirli<br>2. canyataq- gülyataq | | 1000<br>600 (qızıl-5 vah) |
| Mişar daşı | Ağdərə<br>Şorbulaq-I<br>Şorbulaq-II | 38080 min m3<br>6423 min m3<br>2129 "-" | |
| Gəc | Ağdərə | 200 min t | |
| Şirin yeraltı sular | Ağdərə | | 126,6 min m3/gün |

**Şuşa rayonu**

| Faydalı qazıntının növü | Faydalı qazıntı yatağının adı | Ehtiyatlar | |
|---|---|---|---|
| | | Sənaye proqnoz | |
| Üzlük daşı | Şuşa | 1140 min m3 | |
| Gil | Şuşa | 397 "-" | |
| Tikinti daşı | Şuşa kəndi | 12434 min t. | |
| Şirin yeraltı sular | | | 3,89 min m3/gün |
| Mineral sular | Şirlan | 342 m3/gün | |

Düzdür, bu şirkətlərin əksəriyyəti erməni diasporunun təsiri altındadır və ya birbaşa ermənilərə məxsusdur. Lakin şirkətlərin təmsil olunduğu ölkələrin siyahısına baxsaq, arada üçüncü dərəcəli ölkələrlə yanaşı, Qarabağ münaqişəsinin tənzimlənməsini üzərinə götürən həmsədr dövlətlərin də adını görmək mümkündür ki, bu da acı təəssüf doğurur. İşğalçı ölkə isə Azərbaycana məxsus sərvətlərin talan edilməsi prosesində onlardan da dolayısı ilə dəstək almış olur. Zəbt olunmuş ərazilərdə qızıl mədənlərindən tutmuş, mişar daşı yataqlarına qədər böyük ehtiyatlar var. Siyahıya ötəri nəzər salmaq kifayətdir.

Məsələn, Ağdərə rayonu ərazisində qızıl *(Qızılbulaq yatağı)*, qurğuşun *(Mehmana)*, mis, sink *(Dəmirli, Canyataq-Gülyataq)*, Kəlbəcərdə qızıl *(Zod, Ağduzdağ, Tutxum yataqları)*, civə *(Ağyataq, Levçay, Şorbulaq, Ağqaya)*, Laçında civə *(Çilkəz yatağı)*, Zəngilanda qızıl *(Vejnəli)* yatağı. Hələ bunlar siyahının bir qismidir. Təsəvvür edin, Ermənistan beynəlxalq hüquqa tüpürərək Azərbaycanın işğal olunmuş ərazilərindəki sərvətləri talamaqla yanaşı, həyasızcasına özünə "mədən-sənayesinə malik ölkə" statusunda beynəlxalq don geyindirmək istəyir. Lakin bir sıra hallarda işğalçı dövlətin cavabı verilir.

Necə ki, sonuncu dəfə İsveçrənin paytaxtı Bern şəhərində Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü Təşkilatının İdarə Heyətində Ermənistanın təşkilata üzvlük üçün etdiyi müraciətə sərt cavab verilib. Bu barədə "Yeni Müsavat"a **qurumun İdarə Heyətinin üzvü, iqtisadçı-alim Qubad İbadoğlu** geniş məlumat verdi. Onun sözlərinə görə, işğalçı ölkənin Kəlbəcərdə qızıl hasilatına görə bu təşkilata üzvlüyünün əleyhinə çıxış edib: "Ermənistan da bu təşkilata üzv olmaq istəyirdi və hazırda da cəhdlərini davam etdirir. Bilirsiniz ki, Ermənistanın "əsas mədən sənayesi Kəlbəcərdə və Qarabağın işğal olunmuş digər ərazilərindədir. Mən Berndə keçirilən İdarə Heyətində bununla bağlı etiraz çıxışı etdim. Dedim ki, Ermənistanın bu şərtlər daxilində təşəbbüsə qoşulmasının əleyhinəyik. Bizim etirazlardan sonra bir beynəlxalq və mötəbər bir təşkilat Ermənistanla danışıqlara başladı və Ermənistanın qarşısında şərt qoydu ki, bu ölkə təşkilata üzv olacağı təqdirdə onun açıqladığı hesabatda işğal altında saxladığı Azərbaycan ərazisindən çıxartdığı mədən sənayesi məhsullarından əldə etdiyi gəlirlər öz əksini tapa bilməz. Əslində bununla beynəlxalq təşkilat olaraq, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü Təşkilatı Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal etdiyini bir daha təsdiq etdi. Eyni zamanda işğalçı dövlət qarşısında çox ciddi bir şərt qoydu ki, Ermənistan mövcud şərtlər daxilində həmin quruma üzv ola bilməz. Hər halda bizim bu istiqamətdəki cəhdlərimiz nəticə verdi. Beynəlxalq katiblik dəstək verdi, bizim mövqeyimizi dəyərləndirib bəyanatla çıxış etdi və Ermənistan hökuməti qarşısında şərt qoydu. Beləliklə, ən azı mötəbər bir təşkilat Ermənistanın işğalçı mövqeyinin özünün bəyanatı ilə təsdiqlədi və Ermənistan qarşısında belə bir şərtlə çıxış etdi".



**Qubad İbadoğlu:** "Ən azı mötəbər bir təşkilat Ermənistanın işğalçı mövqeyini özünün bəyanatı ilə təsdiqlədi və Ermənistan qarşısında belə bir şərtlə çıxış etdi ki..."

**Q.İbadoğlunun dediyinə görə, Ermənistan işğal olunmuş ərazilərdəki mədən sənayesindən əldə etdiyi gəlirləri gizlətməklə, yeni Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü Təşkilatına təqdim etdiyi hesabata təqdim etməməklə də bu qurumda təmsil oluna bilməz:** "Beynəlxalq təşkilatın qaydalarına görə, Ermənistanın fəaliyyəti auditor şirkətləri, müstəqil administratorlar tərəfindən yoxlamadan keçiriləcək. İlk növbədə bu ölkənin birinci hesabatı dəyərləndiriləcək. Əgər o hesabatda işğal altındakı ərazilərlə bağlı məlumatlar aşkar olunarsa, o halda Ermənistan avtomatik olaraq təşkilatın üzvlüyündən xaric olunacaq. Yeni Ermənistan Kəlbəcərdəki qızıl, yaxud Ağdərədəki mis mədənindən əldə etdiyi gəlirlərlə bağlı faktları özünün hesabatlarına daxil edə bilməz. Həmin ərazilər Azərbaycanın ərazisidir və həmin beynəlxalq təşkilat da bu bölgəni Azərbaycan ərazisi kimi tanıdığına görə İrəvan qarşısında şərt qoyur ki, siz işğalçılıq siyasəti nəticəsində bu torpaqlardan əldə etdiyiniz gəlirləri hesabata təqdim edə bilməzsiniz. Çünki Azərbaycana məxsus təbii sərvətlərin Ermənistan tərəfindən istisman yolverilməzdir. Məsələ burasındadır ki, hələ Ermənistanın təşkilata üzvlüyü məsələsi həll olunmayıb. Üzv olacağı təqdirdə belə, əgər işğalçı ölkə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməzsə, - bunu da müstəqil auditor da çox asanlıqla aşkara çıxara biləcək, - o halda Ermənistan avtomatik olaraq təşkilatın üzvlüyündən xaric olunacaq".

**İqtisadçı-alim deyir ki, Ermənistan yalnız öz ərazisi çərçivəsində hesabatlar açıqlaya bilər, amma öz ərazisindəki təbii sərvətləri o qədər də geniş deyil:** "Bu da sual yaradır ki, Ermənistan hansı təbii sərvətlərlə Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü Təşkilatına üz tutur? Əslində Ermənistan güvənirdi ki, Azərbaycanın işğal altında saxladığı ərazilərindəki sərvətlərin istisman ilə bağlı məlumatları öz hesabatına daxil etməklə Ermənistanın da dağ-mədən sənayesinə malik olan ölkələrdən biri olduğunu və onun da müəyyən sərvətlərdən gəlirlər əldə etdiyini iddia edə biləcək. Ancaq sırf deyil ki, Ermənistan bu sahədəki gəlirlərin böyük hissəsini Azərbaycanın işğal etdiyi ərazilərdən, qızıl, mis mədənlərindən əldə edir". Q.İbadoğlu onu da qeyd etdi ki, indiki şəraitdə Ermənistanın bu təşkilata üzv qəbul edilməsi sual altındadır.

**Azərbaycanlı alim məsələnin hər zaman onun diqqətində olduğunu və işğalçı ölkənin cəhdlərinin qarşısını daima almağa çalışacağını söylədi:** "Mən çalışıram ki, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü Təşkilatı Beynəlxalq İdarə Heyətində daimi olaraq Azərbaycanın maraqlarını müdafiə edim. İlk növbədə məqsəd ondan ibarətdir ki, Ermənistanı ora buraxmayaq. Həqiqətən də Ermənistanın təbii sərvətlərlə zəngin ölkələr siyahısına daxil etmək mümkün deyil. Həmin təşəbbüs də təbii sərvətlərlə zəngin olan ölkələrin cəlb olunduğu təşəbbüsdür. İkinci bir tərəfdən, Ermənistan ora daxil olacağı təqdirdə də yalnız özünün indiki sərhədləri çərçivəsində əldə etdiyi gəlirləri açıqlaya bilər".

**Q.İbadoğlu işğalçı ölkənin Beynəlxalq Məhkəməyə verilməsini də zəruri sayır:** "Əvvəla, hesab edirəm ki, Azərbaycan tərəfi olaraq bu istiqamətdə beynəlxalq mətbuatda analitik yazılar dərc edilməlidir ki, sonradan məhkəmə qərarları üçün istinad imkanları yaransın. İkincisi, fərdi olaraq vətəndaşlar və özəl təşkilatlar adından beynəlxalq hüquq çərçivəsində məhkəmə iddiaları qaldırılmalıdırlar. Vətəndaşlar mülkiyyət hüquqlarının qorunması üçün Avropa İnsan Haqları Məhkəməsinə, özəl şirkətlər isə Avropa İttifaqı və BMT-nin arbitraj məhkəmələrinə müraciət etməlidirlər. Bu istiqamətdə dövlətin əsas işi vəkil və hüquqi dəstək göstərmək olmalıdır. Şəxsən mən ABŞ-da keçirdiyim görüşlərdə və iştirak etdiyim beynəlxalq tədbirlərdə Qarabağ mövzusunu həmişə gündəmdə saxlayıram".

# Moskvadan növbəti "7 rayon qaytarılsın" mesajı




## **Politoloq:** "Bu plana görə, bəzi rayonlar bizə qaytarılacaq, Dağlıq Qarabağ isə ermənilərdə qalacaq..."

**Rusiyadan yenidən işğal olunmuş Azərbaycan ərazilərinin işğaldan azad olunmasının zəruriliyi barədə mesaj verilib. Bu dəfə Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri Dmitri Savelyev anoloji açıqlama ilə çıxış edib.**

"Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında ilk olaraq, ən vacib məsələ ətraf 7 rayonun azad edilməsidir"-deyə, D.Savelyev "moscow-baku.ru saytına müsahibəsində bildirib. O əlavə edib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında daha fəal mövqe tutmalıdır: "Bu il münaqişənin nizamlanmasında irəliləyiş əldə ediləcəyinə çox ümid edirəm. Arada müəyyən çıxılmaz vəziyyətlər yaransa da, iş düzgün istiqamətdə aparılır".

**Politoloq Arzu Nağıyev** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ABŞ və Rusiya yenə də Dağlıq Qarabağ münaqişəsinin həllində nüfuz davasına çıxılar: "Belə ki, ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri deklarativ qərar və bəyantlardan o yana keçə bilmədikləri üçün hazırda təşəbbüsü ələ almağa çalışırlar. 7 rayonun qaytarılması məsələsi isə bir müddət əvvəl Rusiyanın xarici işlər naziri Lavrov tərəfindən də səsləndirildi. Lakin bu iddialar da bəyanatdan o yana keçmədi və hətta bundan sonra təməs xəttində və sərhəddə cəbhədə vəziyyət daha da gərginləşdi. Yəni Dmitri Savelyevin verdiyi məlumat yeni bir məsələ deyil. Bütün beynəlxalq təşkilatlar və ictimaiyyət bilir ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində əsas açar fiqurlardan biridir. Yəni bu gün Rusiya deyirsə ki, 7 rayon qaytarılmalıdır, deməli, Ermənistan hər hansı bir rolu və qərar vermək iqtidarında olmayan dövlətdir".

**A.Nağıyevin fikrincə, eyni zamanda ABŞ formatı dəyişmək naminə öz növbəsində icmaların görüşməsi təklifini irəli sürür, konqresdə dinləmələr keçirir və təşəbbüsü ələ almaqla Rusiyanın rolunu kiçiltməyə çalışır:** "Bir sözlə, əsas məsələ nüfuz qazanmaqdır. Məlumdur ki, Dağlıq Qarabağ münaqişəsinin həllində əsas məsələ beynəlxalq qurumlar tərəfindən tanınan Azərbaycanın ərazi bütövlüyüdür, sonradan digər addımlar atılmalıdır. Yəni bu da Madrid prinsiplərində öz əksini tapıb. Düşünürəm ki, bizim əsas vəzifəmiz güclü ordunun formalaşdırılması və güc nümayişi vasitəsilə Ermənistanı və onun havadarlarını sülh danışıqları masasına əyləşdirməkdir. Əks təqdirdə nüfuz davası və təşəbbüs naminə danışıqlar uzanacaq və bizim xeyrimizə olmayan status -kvo saxlanılacaq".

**Politoloq Hikmət Hacızadə** də Moskvanın səmimiliyinə inanmır: "Rusiyanin həqiqi plani bu münaqişədə barış yaradmaq deyil, "sülhməramli qoşunlar" adi ilə öz ordusunu Azərbaycana qaytarmaqdır. Bu plana görə bəzi rayonlar bizə qaytarılacaq, Dağlıq Qarabağ isə ermənilərdə qalacaq. Ətraf rayonlar boşaldılandan sonra ermənilərin tələbi ilə onların "təhlükəsizliyi" üçün təməs xəttinə sülhməramli qoşunlar yeridiləcək. Bu qoşunlar təbii ki, Rusiyanın qoşunları olacaq. Plan bu qədər sadədir".

# Ehtiyatsızlıqdan qatilə çevrilən gözdən əlilin məhkəməsi sona çatdı

**Ali Məhkəmədə gözdən əlil Əli Abdullayevin işi üzrə proses sona çatıb. Bakı Apelyasiya Məhkəməsinin Ə.Abdullayev barəsindəki qərarı qüvvədə saxlanılıb. Əlili məhkəmə qarşısına çıxaran səbəb onun zorakılıqla üz-üzə qalması olub. Sabunçu Rayon Prokurorluğunda Ə.Abdullayevin Elçin Əliyevin ölümünə səbəb olan cinayət işi araşdırılıb. Ə.Abdullayevə Cinayət Məcəlləsinin 120-ci - qəsdən adam öldürmə maddəsi ilə ittiham elan olunub. İbtidai istintaq zamanı Ə.Abdullayev istintaqçılara deyib ki, onun E.Əliyevi öldürmək niyyəti olmayıb.**



Sədəcə gecə saat 1-dən səhər 6-ya qədər ona qarşı ağır təhqir və qanunsuz hərəkətlər olunub, döyülməsinə son vermək üçün E.Əliyevi qorxutmaq niyyəti ilə qolundan bıçaqla xəsarət yetirmək istəyib. Lakin bıçaq zərərçəkənin ürək nahiyəsinə ancılıb və yalnız bundan sonra əlil hadisə yerindən qaça bilib.

İş Bakı Ağır Cinayətlər Məhkləməsinə göndəriləndən sonra gözdən əlil orada da hakimlərə izah etməyə, inandırmağa çalışıb ki, E.Əliyevi qəsdən öldürməyib. Buna baxmayaraq məhkəmə onun əməlinə ittiham aktında yazılanlar üzrə qiymət verib. Beləliklə ötən ilin mayında Ə.Abdullayev 10 il müddətinə azadlıqdan məhrum olunub.

Hökmdən verilmiş apelyasiya şikayəti araşdırılarkən isə müdafiə tərəfi əlilin əməlinin Cinayət Məcəlləsinin müvafiq maddəsinə - Cinayət Məcəlləsinin 123-cü - zəruri müdafiə həddini aşmaqla qəsdən adam öldürməyə tövsif olunması məsələsini qaldırıb. Müdafiə tərəfi bildirib ki, Sabunçu Rayon Prokurorluğunda Ə.Abdullayev barəsində CM-nin 120.1-ci maddəsi ilə cinayət işi başlayarkən işin detallarına diqqət yetirilməyib. Ə.Abdullayevin zərərçəkən tərəfindən döyülməsi, ona ağır xəsarət yetirilməsi, olayın yaranmış dözülməz psixi şəraitdə baş verməsi nəzərə alınmayıb.

Bakı Apelyasiya Məhkəməsi işin detallarını araşdırıb və əlilin 123-cü maddə üzrə mühakimə olunmasına qərar verib. Nəhayətdə həmin maddə üzrə əlilin 1 il 6 ay müddətinə cəzalandırılması qərara alınıb.

Ə.Abdullayevin vəkili Ceyhun Yusifov deyir ki, verilmiş kassasiya protesti ilə işə baxan Ali Məhkəmənin Cinayət Kollegiyası Bakı Apellyasiya Məhkəməsinin qərarını dəyişməməsi ədalətin təntənəsidir: "Bakı Apelyasiya Məhkəməsi ədalətli qərar vermişdi, Ali Məhkəmədə də qərar qüvvəsində saxlanıldı". Tanınmış vəkil hesab edir ki, ağır cinayət kimi tövsif olunan əməlin böyük ictimai təhlükə törətməyən əmələ tövsif edilməsi bəraətə bərabər nəticədir.

❑ **E.HÜSEYNOV**

## Piyadanı vuran sürücüyə bir maddə üzrə bəraət verildi



**Nizami Rayon Məhkəməsində yol-nəqliyyat qəzası törədən Camaləddin Həsənovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Vəkil Ceyhun Yusifovun APA-ya verdiyi məlumata görə, hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən C.Həsənova ittiham olunduğu Cinayət Məcəlləsinin 264-cü (yol nəqliyyat hadisəsi yerindən qaçma) maddəsi ilə bəraət verilib. Digər ittiham olunduğu 263-cü (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma) maddəsi ilə isə 2 il müddətinə azadlıqdan məhrum edilib. O, cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkəcək.**

Qeyd edək ki, ötən il may ayında 171 saylı avtobus Ruslan adlı şəxsi metronun "Koroğlu" stansiyasının yaxınlığında vuraraq bədən xəsarətləri yetirib. Hadisədən sonra sürücü C.Həsənov avtobusdan düşərək Ruslana yardım etməyə başlayıb. Bir müddətdən sonra polis əməkdaşları hadisə yerinə gələrək onu həbs ediblər. Lakin polislər C.Həsənovun hadisə yerindən qaçdığını iddia ediblər. Polislərin həmin ifadələri məhkəmə tərəfindən sübuta yetirilmədiyi üçün C.Həsənova həmin məsələ ilə bağlı bəraət verilib.



## Bakıda dörd qız bir oğlana hücum etdi, polis oğlanı tutdu

**Nərimanov rayonu Nəcəf Nərimanov küçəsində, "Cıdır" restoranının qarşısında dörd nəfər qızla gənc oğlan arasında mübahisə düşüb. Ölkə.az-ın əməkdaşının şahidlik etdiyi hadisə zamanı qızlar oğlana hücum ediblər. Bir neçə dəqiqə sonra əraziyə post-patrul xidmətinin əməkdaşları çağırılıb. Polislər oğlanı patrul maşınına oturdaraq ərazidən uzaqlaşıblar.**

Həmin qızlardan biri isə ətrafdakılara bildirib ki, oğlan ona sataşıbmış.

## Bakıda ər və arvad evdə yanıb öldü



**Bakıda iki nəfərin ölümü ilə nəticələnən yanğın hadisəsi baş verib. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, hadisə Bakı şəhəri, Suraxanı rayonunda qeydə alınıb. Çoxmənzilli yaşayış binasında vətəndaşa məxsus ümumi sahəsi 60 kv.m olan 3 otaqlı mənzilin 1 otağında divan 2 kv.m sahədə və yerə döşənmiş xalça yanıb. Yanğının kəşfiyyatı zamanı ev sahibi, 1951-ci il təvəllüdlü Mikayıl Abbasov və onun həyat yoldaşı, 1951-ci il təvəllüdlü Zoya Abbasovanın yanmış meyitləri aşkar edilib. Mənzilin qalan hissəsi yanğından mühafizə olunub.**

Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən təhqiqat aparılır.

## Paytaxtda gənc oğlanı işgəncə ilə öldürdülər

**Bakıda daha bir qətl törədilib. APA TV-nin məlumatına görə, hadisə Nizami rayonunda qeydə alınıb. Daxili İşlər Nazirliyi Bakının Nizami rayonunda törədilən qətllə bağlı məlumat yayıb.**

APA-nın nazirliyin saytına istinadən verdiyi məlumata görə, yanvarın 7-də Bakı şəhər sakini Fərid Abbasovun üzərində zorakılıq əlamətləri (döyülmə üçün xarakterik olan) və qolları bağlı vəziyyətdə olan meyiti paytaxtın Nizami rayonunun R.Rüstəmov küçəsindəki evində tapılıb.

Polisdən verilən məlumata görə, hələlik qətlin hansı şəraitdə törədilməsi məlum deyil. Araşdırmalar zamanı məlum olub ki, meyit Fərid Abbasova məxsusdur. Qonşuların APA TV-yə verdikləri məlumata görə, mərhum sözügedən ünvanda kirayə qalırmış. Qonşular bildiriblər ki, mərhumu heç vaxt həyətdə görməyiblər. Hazırda hadisənin səbəbləri və qətli törədən şəxslərin müəyyənləşdirilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Faktla bağlı Nizami Rayon Prokurorluğu tərəfindən cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



**Nərimanov Rayon Məhkəməsinin həyətində (Montində) 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuzdur. Sənədi var.**

**Telefon: (050) 264-49-99**





# Bayramdan öncə qalxan qiymətlər enməyib

## **Ekspert:** "Yerli istehsalçılar qiyməti daha çox qaldırmalı olacaqlar, çünki..."

**Bayram qabağı ərzaq və kənd təsərrüfatı məhsullarının qiyməti əl yandıracaq dərəcədə bahalaşmışdı. Həm devalvasiyanın təsirindən əmələ gələn bahalaşma, həm də bayramqabağı olmasından istifadə edən işbazların qiymət artımı əhalini təngə gətirmişdi. Bəs bayramdan sonra vəziyyət necədir? Sualımıza cavab tapmaq üçün bir neçə böyük marketə və "Yaşıl bazar"a üz tutduq.**

Mağazalarda müşahidə etməsək də bazarda müəyyən qədər ucuzlaşma vardı. Baş çəkdiyimiz "Yaşıl bazar"da satıcılar bəzi məhsulların ucuzlaşdığını, bəzilərininsə əksinə bahalaşdığını deyirdilər. Məsələn, bayramqabağı 2 manata satılan alma indi 1 manat 50 qəpiyə, 2 manat 50 qəpiyə satılan armud, portağal indi 2 manata satılırdı. Mandarinin qiyməti isə 1 manat 50 qəpik və 2 manat arasında dəyişirdi. Pomidorun kilosu 3 manata idi. Badımcan və xiyarın qiyməti isə bahalaşıb. Belə ki, bayram ərəfəsində 3 manat 50 qəpiyə satılan badımcan indi 4-5 manat arasında, 3 manat 50 qəpiyə satılan yerli xiyarlar isə indi 4 manata satılırdı. Amma müşahidələrimiz zamanı hələ də 3 manat 50 qəpiyə satılan xiyarlara rast gəldik. Soğan 70 qəpik 1 manat arasında satılırdı. Qırızı soğanın qiyməti isə 1 manat 30 qəpik idi. İran, Rusiya kartofları 1 manata, Gədəbəy kartofu isə 1 manat 50 qəpiyə təklif edilirdi.

Satıcılar qiymətlərin dollar bahaılaşdıqca qalxacağını deyirdilər. Kartof-soğan satıcısı Əli Qulyevin sözlərinə görə, alıcılar qiymətlərdən narazılıq edir: "Alıcılar gəlib deyir ki, necə olur İran, Rusiya kartofu ucuzdur yerli Gədəbəy kartofu baha. Başa düşmürlər ki, hər şeyin qiyməti bahadır, təkcə Gədəbəy kartofunun yox. O kartofun ərsəyə gəlməsinə nə qədər vəsait tələb olunduğunu bilmirlər. Sonra bu kartofları Bakıya gətirmək var. Hamısı puldur. Biz də bir az üstünə qoyub satırıq ki, özümüz də ərzaq ala biləк. Tək kartofla yaşamaq olmaz ki".

**Alıcı Samirə Əliyeva isə qiymətlərdə cüzi də olsa ucuzlaşmanın olduğunu dedi**: "Bütün məhsullarda olmasa da bir sıra məhsullarda 20-30 qəpik ucuzlaşma var. Amma bir az da qiymətlər ensəydi yaxşı olardı".

Marketlərdə vəziyyət isə bazardakından daha pis idi. Belə ki, qiymətlərdəki artımlar nəinki insanları alış-verişdən yayındırır, ərzaq səbətini tam doldurmadan marketdən çıxmağa vadar edir. Baş çəkdiyimiz "Makro market"də demək olar ki, bütün ərzaq məhsullarının qiymətində 2-3 manat artım vardı. Eyni zamanda şampunların, yuyucu tozlarının, diş pastalarının qiymətində də 50 qəpik 2 manat arasında bahalaşma vardı. Marketdə armud 4 manata, alma 3 manata, pomidor 4-6 manat arasında satılırdı.

**Hətta satışda 1 dənəsi 5 manat 50 qəpiyə alça da satılırdı. Ancaq satıcı alçaların alıcısının olmadığını dedi**: "İnsanlar ərzağa pulu güclə çatdırır, alçanı necə alsınlar? Gətirib vitrinə qoymuşduq ki, bəlkə görüb alan olar. Amma vitrində saraldı. Ona görə də götürmüşük. İstəyən olanda gedib gətiririk".

*Maraqlıdır, gün keçdikcə kəllə çarxa qalxan bahalaşmanın qarşısını necə almaq olar?*

**İqtisadçı-ekspert Natiq Cəfərli** yerli istehsal olan məhsulların qiymətinin daha da bahalaşacağını dedi: "Yerli istehsal məsələsi insanlar tərəfindən də düzgün izah olunmur. Televiziyalarda da tez-tez bu barədə mesajlar verilir və insanlarda belə bir təsəvvür yaranır ki, əgər bir insan yerli məhsul istehsal edirsə, bu qiyməti qaldırmamalıdır. Bu tamamilə səhv yanaşmadır. Çünki həmin insanın başqa sahələrdə xərcləri artıb. Bu pomidor, kartof, armud istehsal edirdisə, əvvəl qazandığı pula daha çox başqa sahələrdən öz ehtiyaclarını ödəyə bilirdi. İndi başqa sahələrin hər tərəfində qiymətlər bahalaşıb. Bu insanların böyük əksəriyyətinin dollarla kreditləri var. Həmin kreditlərin həcmi qalxıb. Ölkəyə gətirilən məhsulların qiyməti qalxıb. Yəni yerli istehsalçıdan tələb etmək ki, sən qiyməti qaldırma, bu düzgün deyil. Qiyməti bazar, rəqabətli mühit müəyyən etməlidir. Bazarlarda inzibati yollarla, əmrlə xidmət müəyyən olunmur. Dünyanın heç yerində normal iqtisadi sistemlərdə bu işləmir, işləməyəcək də. Bunun təklif proqramları olmalıdır, hökumət tərəfindən vergi güzəştləri olmalıdır. Müəyyən addımlar olmalıdır. Aşağı faizlə uzun müddətli kreditlər həyata keçirməlidirlər. Bunların heç biri olmadan yerli istehsalçıdan qiyməti qaldırmamasını tələb etmək tamamilə səhv və mümkünsüz yanaşmadır. Biz görəcəyik ki, yerli istehsalçılar məcburən qiyməti daha çox qaldırmalı olacaqlar".

❑ **Günel MANAFLI**
❑ **Fotolar müəllifindir**

# Tikinti materialları bazarı çöküb

## Qiymətlər bahalaşıb, alıcı isə yoxdur





**Manatın dollara nisbətdə kəskin ucuzlaşması ölkədə bir çox məhsulların qiymətinin bahalaşmasına səbəb olub.**

Musavat.com-un əməkdaşı Dərnəgül yolunda yerləşən tikinti materialları bazarında olduğu zaman şahidi olub ki, bu bazarda da demək olar bütün materialların qiymətində artım var.

Tikinti materialları bazarında müştəri çox az olsa da, satıcılar qiymətləri qaldırmağa məcbur olduqlarını bildirdilər. Ümumiyyətlə, hazırda bazarda sakitlik müşahidə olunur. Mal sahibləri girişlərdə olan xüsusi tikililərdə əyləşərək, müştərinin gəlməsini gözləyirlər. Ara-sıra bazara üz tutan müştəri isə yeni qiymətlərdən xəbər tutunca gəldiyi kimi geri dönür. Satıcılar bildirirlər ki, dolların məzənnəsində kəskin artım onları qiymətləri bahalaşdırmağa məcbur edib. Bundan sonra da bahalaşmanın davam edəcəyi gözlənilləndir. Bazarda alıcılar da qiymətlərdən şikayətlənirlər. Rahim adlı alıcı ilə söhbətimiz zamanı o bildirdi ki, Sulutəpə ərazisində ev tikir. Daha öncə hesabladığı məbləğlə hazırkı qiymətlər arasında təxminən 10-15 min manat arasında fərq var:

"Belə bilsəydim heç ev tikməyə başlamazdım. Əvvəllər hesablayırdıq ki, 30 min manata normal ev tikib içərisinə yerləşə bilərik. Tikintiyə başlamamışdan öncə smeta da tərtib etmişdim. İndi hesablayıram ki, həmin smetadan 10-15 min manat artıq xərcim çıxacaq. Hələ deyirlər ki, bahalaşma davam edəcək. Bütün materialların qiyməti qalxıb".

Satıcılar isə bildirirlər ki, heç kim müştərisini itirmək istəməz. Bu cür qiymət artımı onlara da sərf etmir.

**Belə ki, hazırda bazarda qiymətində ən çox artım olan tikinti materialı taxtadır. Taxtanın 1 kubu 280-300 manatadır. Bu isə manatın ikinci devalvasiyasından öncəki qiymətdən təxminən 101-121 AZN bahadır. Taxta satıcısı Ruslan bildirdi ki, qiymətlərin daha da artacağı istisna deyil**: "Əvvəllər ucuz alırdıq, ucuz satırdıq. İndi dolların qiymətinin qalxmasına görə, məcbur olub biz də qiymətləri qaldırmışıq. Bundan sonra qiymətlərin necə olması da məzənnədən asılıdır. Qiymətlərdə artım da ola bilər, enmə də".

Daşlara gəlincə tamet daşların qiymətində hələ ki, bahalaşma yoxdur. Satıcılar bildirirlər ki, gətirdikləri material satılıb qurtardıqdan sonra qiymət artımı ola bilər. Hazırda tamet daşların qiyməti 6-8 manat arasında dəyişir.

Mərmərlərin isə bütün növlərinin satış qiyməti artırılıb. Hazırda bazarda ən ucuz mərmərin kvadratı 40 AZN-dir ki, daha öncə bu, 30 AZN olub. Mərmərin qiyməti 40-60 manat arasında dəyişir.

Sementin isə qiyməti qalxmayıb. Satıcılar bildirirlər ki, bu da əllərində olan sementin satılıb qurtarmaması ilə əlaqədardır. Növbəti dəfə mal gətirdikləri zaman neçəyə almalarından asılı olaraq, qiymətdə dəyişiklik edə bilərlər.

Bazarda lambirin qiyməti 4.20 qəpik (əvvəllər 3.80 AZN olub) Laminantın qiyməti isə 20 manatadır.

Devalvasiyadan sonra alçipanların qiyməti isə 1.50 AZN bahalaşıb. Hazırda bazarda 9.5 mm qalınlığında olan alçipanın 1 ədədinin qiyməti 7,5 AZN, 12.5 mm-liyin 1 ədədi 10,5-12,5 AZN arasında dəyişir.

Divar üzlüklərinin qiymətində isə (spaklovka) 70 qəpik bahalaşma var.

Digər növ tikinti materiallarının da qiymətində müəyyən qədər artım mövcuddur. Söhbət etdiyimiz bütün satıcılar, qiymət artımının dollardan asılı olaraq davam edəcəyinin istisna olmadığını bildirdilər.

Bəs belə olduğu təqdirdə Bakıda mənzil bazarında qiymətlər yüksələ bilərmi? Məsələ ilə bağlı musavat.com-a iqtisadçı ekspert Vüqar Bayramov danışıb. O bildirib ki, tikinti materialları bahalaşsa da bu mənzil bazarında qiymət artımına səbəb olmayacaq: "Mənzillərin qiymətində artım proqnozlaşdırılmır. Çünki tələb aşağıdır. İnsanlar mənzil və digər bu kimi istiqamətlərə vəsait qoymağa maraqlı deyil, yığıma üstünlük verirlər. Manatın devalvasiyası fonunda ümumiyyətlə, gözlənilir ki, evlərin dollar ifadəsində kəskin azalmalar olacaq. Doğrudur, tikinti materiallarının qiymətində artım var, ancaq bu gün yeni tikintilərin də sayı azdır. Bazarda olan mənzillər xeyli müddət əvvəl inşa edilmiş köhnə binalarda olan evlərdir. Tikinti materiallarının qiymətinin artması gələcəkdə bazara çıxarılacaq evlərin qiymətinə təsir göstərə bilər. Ancaq indiki məqamda satılan evlərə bu aid deyil. Növbəti aylarda da mənzil bazarında qiymətlərin azalması davam edəcək".

❑ **Əli RAİS**
❑ **Fotolar müəllifindir**

YENİ MÜSAVAT
Son səhifə
N 5 (6326) 9 yanvar 2016



## 292 kiloluq qadın çətinliklərindən danışdı

Amerikada yaşayan 33 yaşlı qadın hər gün üzləşdiyi problemlərdən danışıb. Nikki Vebster adlı qadının sözlərinə görə, nəinki yerimək, hətta əynini dəyişmək belə onun üçün olduqca ağırdır. Gənc qadın uşaqlığından bəri artıq kiloları ilə mübarizə aparsa da, heç vaxt normal çəkiyə düşə bilməyib. Çəkisi davamlı olaraq 300 kilo ətrafında dəyişən qadın evdən bayıra çıxmağın onun üçün böyük uğur olduğunu dilə gətirib. Qeyr-adi paltarlar hazırlamaqla məşğul olan qadın işə getdiyi zaman maşını yük maşınlarının saxlanıldığı yerdə park edir və xüsusi şəkildə iş otağına aparılır. Evdəki gündəlik işlərlə belə məşğul ola bilməyən Nikki hər yeri ağrıdığı üçün özünə nifrət etdiyini deyir. Qadın bu vəziyyətinə görə özünü günahkar hesab edir.

## 20 yaşlı gənclə xəyanət

Peruda ərinə xəyanət edən qadın kənd meydanında ağacla döyülüb. Cajamarca bölgəsindəki kiçik kənddə baş verən hadisə zamanı 52 yaşlı qadın ərini 20 yaşlı yeznəsi isə aldadarkən tutulub. Qadının iddiasına görə, əri İspaniyada çalışarkən bacısının 20 yaşlı əri onu yoldan çıxarıb. Xəyanətin ortaya çıxmasından sonra kəndin ağsaqqal heyəti qadına cəza verib. Cəzaya görə, ərinə xəyanət edən qadın kənd meydanında hər kəsin gözü önündə ağacla döyülüb.

# "Ağıllı ayaqqabı" da icad edildi

Las-Veqasda təşkil olunan CES 2016 sərgisində "ağıllı ayaqqabı" təqdim olunub. Milli.az xarici mətbuata istinadən xəbər verir ki, ayaqqabı qış fəslində ayaqları isidir. "Smartshoes" adlanan ayaqqabı içərisində yerləşdirilmiş sensor sayəsində atdığınız addımların sayını, gün ərzində itirdiyiniz kalorini hesablayır. Ağıllı ayaqqabının "bluetooth"u da var. Ayaqqabının ön hissəsində kiçik işıqdiodlu fənər yerləşdirilib ki, bu da qaranlıqda yolu görməyə imkan verir. "Smartshoes" modeli enerji ilə naqilsiz stansiyadan təchiz olunur və bir neçə günə kimi işləyə bilir.




Qeyd edək ki, "smartshoes" 2016-cı ilin payızında satışa çıxarılacaq. Ayaqqabı üçün qiymət 450 dollar nəzərdə tutulub.

# Uşağınızın ağıllı olmağını istəyirsinizsə...

Hamiləlik zamanı qadın düzgün və tam dəyərli qidalanmalıdır. Bu uşağın normal inkişafı üçün olduqca vacibdir. Araşdırmalar sübut edir ki, hamiləlik zamanı pis qidalanan, ac qalan qadınların uşaqlarında inkişaf geriliyi qeyd olunub. Uzunmüddətli müşahidələr nəticəsində alimlər belə qərara gəliblər ki, hamiləlik zamanı yodun cüzi də olsa çatışmazlığı gələcəkdə uşağın nitq inkişafına böyük təsir edir. Belə uşaqlar daha gec danışmağa başlayır, məktəbdə yazı yazmaqda və oxumaqda çətinlik çəkirlər. Hamiləlik zamanı qadın orqanizminin yoda olan tələbatı artır və təxminən 250-300 mkq təşkil edir.

Yodla zəngin olan məhsullar:

*- Dəniz balığı və dəniz məhsulları (tunes, treska və traska balığın qara ciyəri, xan balığı, qızılbalıq, xek, krevet, krab)*
*- Dəniz yosunları (laminariya)*
*- Feyxoa*
*- Qoz*
*- Şampinyon*
*- Xurma*
*- Süd, pendir*
*- Yumurta*
*- Banan*
*- Lobya, noxud*
*- İspanaq*
*- Portağal.*





## Robot sayı insan sayını keçəcək

Kanadalı mütəxəssis Logan Streandj 2040-cı ildən sonra robotların sayının insanların sayından çox olacağını, hətta onlar üçün xüsusi yaşayış yerlərinin ola biləcəyini deyib. "A Home for Robot or-else Artilect War" ("Robotlar üçün bir yuva və ya insanlarla robotlar arasında savaş") adlı kitabında yeni fikirlər irəli sürən Streondj, hər il ortalama 350 min uşaq doğulduğunu, digər tərəfdən 2014-cü ildən bəri 5 milyon ədəd robot istehsal edildiyini deyib. Bu göstəricilər 25 il ərzində, yəni 2040-cı ildə insan və robotların sayı bərabərləşəcək. Məşhur mütəxəssis 2040-cı ildə "Terminator" filminə olduğu kimi insanlarla robotların savaşmaya başlayacağını düşündüyünü deyib.




QOÇ - Yeni əlaqələrə başlamaq üçün şanslı ərəfədir. Çalışın ki, təşəbbüskarlığı əldən verməyəsiniz. Nahardan sonra aldığınız bütün təkliflərə razılıq verin. Riskdən qorxmayın.

BUĞA - Günün ilk yarısında mümkün qədər ehtiyatlı olun. Çünki sizə qarşı təxribat hazırlandığı güman olunur. Nahardan sonrakı ərəfəni isə bütünlüklə ailə-sevgi məsələlərinə həsr edin.

ƏKİZLƏR - Yeni simalarla, xoş təsadüflərlə rastlaşma ehtimalınız böyükdür. Hətta bir neçə sürpriz də mümkündür. Saat 19-dan sonra bütün təkliflərdən imtina edin, hətta xeyirli görünsə də.

XƏRÇƏNG - Şəxsi işlərinizdə əsaslı dönüşə başlamaq istəyirsinizsə, bu təqvimdən yararlanın. Təcrübəli adamların məsləhətindən nəticə çıxarın. Həmkarlarınızla səmimi davranın. Sürprizlər gözlənilir.

ŞİR - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, səfərə də çıxasınız. Ümumiyyətlə, bu gün uzaqda yaşayan doğmalarınızla mütləq əlaqə saxlamalısınız. Ədalət prinsiplərindən çıxmayın.

QIZ - Kifayət qədər uğurlu gündür. Nəzərdə tutduğunuz bütün ədalətli planların reallaşacağı gözlənilir. Qonaq getmək ehtimalınız da var. Amma gərək gecəni öz evinizdə keçirəsiniz.

TƏRƏZİ - Yalnız istirahətə aludə olun. Hər hansı fəaliyyət və ya riskli sövdələşmə zərərinizə ola bilər. Özünüzü hər hansı münaqişələrdən qoruyun. Nahardan sonra qonaq getməyə dəyər.

ƏQRƏB - Maraqlı bir gün yaşayacaqsınız. Ətrafınızda olan hər şey ürəyinizcə olacaq. Ulduzlar günün ikinci yarısını gəzinti və əyləncələrə, qonaqlıqlara həsr etməyinizi tövsiyə edir.

OXATAN - Göy qübbəsi bu təqvimdə bütün külli-ixtiyarı öz əlinizə verəcək. Deməli, proseslərin inkişafı çıxardığınız qərarlardan asılı olacaq. Ədalətli addımlar atın, Tanrı hökmünü unutmayın!

OĞLAQ - Bu gün xoş enerjili Günəş də, mənfi yüklü Ay da bürcünüzdə qərar tutduğu üçün yeni, riskli və ağlınız kəsməyən işlərdən imtina etməlisiniz. Hər bir addımı məntiqli və ağıllı atın. Mübahisəyə zəmin yaratmayın.

SUTÖKƏN - Sağlamlığınıza zidd işlər görməyiniz ümumi əhvalınızda passivlik yarada bilər. Odur ki, səhhətinizə qarşı diqqətli olun. Yeni planlarınızı bir daha götür-qoy edin. Sədəqə verməkdən çəkinməyin.

BALIQLAR - Fəaliyyət zəminində böyük uğurlara gedən yolu tapacaqsınız. Buna görə də hər şeyi dəfələrlə ölçüb-biçin. Asudə vaxtlarınızı isə xilas mənbəyiniz olan məhəbbətə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Onlar duyğularını ifadə edə bilirlər

Sinqapurlu alimlər insanabənzər robot texnologiyasında yeni addım atıblar. Yeni hazırlanan texnologiya sadəcə, görünüşü ilə deyil davranışları ilə də insana bənzəyir. Nanyang Texnologiya Universitetinin hazırladığı "Nadinə" adlı robot qarşısındakı insanlarla münasibət qura bilər. Səs tonunu söhbətin mövzusuna görə dəyişdirə bilir. Daha əvvəl gördüyü insanları və etdiyi söhbətlərin mövzusunu xatırlaya bilir. Nadinənin danışdıqlarına görə xoşbəxt, üzgün, həyəcanlı və özünə qapanıq olduğunu hiss etmək mümkündür. Çox yaxşı yaddaşı olan Nadinə eyni mövzulardan bir neçə dəfə danışıldığı zaman qarşısındakına "bu mövzunu daha əvvəl danışmışdıq" deyə xəbərdarlıq edir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300